HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 50 (790) ■ 23 dekabr 2015

www.vergiler.az

Qiyməti: 40 qəp.

## Əfqanıstan İslam Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri

*Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycana rəsmi səfərə gəlib. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin əfqanıstanlı həmkarı ilə təkbətək görüşü olub.*



Görüşdə ikitərəfli münasibətlərin siyasi sahədə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğu vurğulanıb. Söhbət zamanı əlaqələrimizin möhkəmləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olunub, ikitərəfli və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra hər iki Prezidentin geniş tərkibdə görüşü keçirilib. Azərbaycan Prezidenti bildirib ki, Məhəmməd Əşrəf Qaninin ölkəmizə rəsmi səfəri əməkdaşlığımızın yaxşı əlamətidir, iki ölkə arasında mövcud olan dostluq tarixə və dövlətlərimizin bugünkü birgə maraqlarına əsaslanır: «Biz beynəlxalq təşkilatlarda çox fəal siyasi dialoq aparırıq, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında sıx əməkdaşlıq edirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə davamlı dəstəyə görə Sizin ölkənizə çox minnətdarıq. Siz bizi BMT Baş Assambleyasındakı səsvermədə dəstəklədiniz. Siz bizi Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizəd olanda dəstəklədiniz. Biz buna görə çox minnətdarıq. Eyni zamanda, biz də bütün təşəbbüslərdə, bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyirik. Biz belə mükəmməl siyasi əlaqələrə malik olaraq iqtisadi məsələlərə diqqəti cəmləşdirməliyik».

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsini artırmaq və investisiya layihələri paketi üçün çox yaxşı imkanların mövcudluğu müzakirə edilib. Prezident İlham Əliyev əlaqələrin daha da intensivləşdirilməsi üçün nəqliyyat infrastrukturunun genişləndirilməsinin əhəmiyyətini qeyd edib: «Mən Sizə məlumat verdim ki, biz İpək Yolunun çatışmayan hissəsini - Azərbaycan ilə Gürcüstan və Türkiyə arasında dəmir yolu əlaqəsini tamamlayırıq. Ümidvaram ki, biz gələn il Bakı-Tiflis-Qars dəmir yolunun açılışını edəcəyik... Biz artıq marşrutu sınaqdan keçiririk. Əlbəttə ki, biz nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsini istəyirik. Həmçinin enerji resursları sahəsində yaxşı imkanlar var».

Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani əvvəlcə Əfqanıstan xalqı və hökuməti adından neft platformasında insanların həlak olması ilə nəticələnən dəhşətli hadisə ilə əlaqədar dərin hüznünü ifadə edib. Azərbaycan Prezidentinin NATO-nun Qətiyyətli Dəstək Missiyasında davamlı iştirakına görə dərin minnətdarlığını bildirib: Hesab edirəm ki, Azərbaycanın bütün beynəlxalq təşkilatlarda bizə verdiyi dəstək və şəxsən üzərinizə götürdüyünüz öhdəlik təqdirəlayiqdir. Əlbəttə ki, biz Azərbaycanın ərazi bütövlüyünü tamamilə dəstəkləyirik. Məcburi köçkünlərin taleyi və Azərbaycanın ərazi bütövlüyü, dövlətin qurucusu olan mərhum atanız üçün olduğu kimi, Sizin üçün də hər şeydən önəmlidir. Azərbaycana böyük nümayəndə heyəti ilə gəlişimizin səbəbi ölkənizdəki dəyişikliyi bilavasitə müşahidə etmək istəyimizlə bağlıdır».

Sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub.

## Prezidentlərin görüşü keçirilib

Dekabrın 19-da İsveçrə Konfederasiyasının Bern şəhərində ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirilib.

İsveçrəyə səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlcə İsveçrə Federal hökumətinin üzvü, Xarici İşlər Departamentinin rəhbəri Didye Burkhalterlə görüşüb.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olub.Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər.

### BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ YEVLAXDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 2

VERGİLƏR NAZİRLİYİ İKİ MÜKAFATA LAYİQ GÖRÜLÜB 2

VERGİ MƏCƏLLƏSİNƏ VƏ DİGƏR NORMATİV-HÜQUQİ SƏNƏDLƏRƏ DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏRƏ ŞƏRHLƏR 3

QANUN HAMI ÜÇÜN BİRDİR 5

## Türkiyə parlamentinin sədri Azərbaycana gəlib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı noyabr ayında Türkiyədə keçirilən parlament seçkilərində qazanılan qələbə və Türkiyə Böyük Millət Məclisinin sədri kimi mötəbər vəzifəyə seçilməsi münasibətilə İsmayıl Qəhrəmanı təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev Türkiyə parlamenti sədrinin ilk xarici səfərini qardaş ölkəyə etməsindən məmnunluğunu bildirib. Bu ayın əvvəlində Baş nazir Əhməd Davudoğlunun ölkəmizə səfərini xatırlayan dövlətimizin başçısı bunun gözəl ənənə olduğunu vurğulayaraq, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra ilk səfərini Azərbaycana və özünün 2013-cü ildə Prezident seçiləndən sonra ilk xarici səfərini qardaş ölkəyə etməsini məmnunluqla xatırlayıb və bunu Azərbaycan-Türkiyə birliyinin yaxşı nümunəsi kimi dəyərləndirib. Prezident İlham Əliyev bir daha qeyd edib ki, dünyada Azərbaycan ilə Türkiyə kimi bir-birinə bağlı olan ölkələr tapmaq çox çətindir. Dövlətimizin başçısı Azərbaycanın 24 illik müstəqilliyi dövründə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin böyük sınaqlardan çıxdığını vurğulayıb, bu gün ölkələrimizin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla əməkdaşlıq etdiklərini və bir-birinə verdikləri qarşılıqlı dəstək sayəsində daha da gücləndiklərini qeyd edib. Azərbaycan-Türkiyə iş birliyinin və dostluğunun regionda mühüm amilə çevrildiyini bildirən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləmələrinin önəmini də vurğulayıb. Əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın mühüm yer tutduğunu deyən Prezident İlham Əliyev bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini bildirib. Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrü xatırlayan dövlətimizin başçısı ölkəmizin bu təşkilata üzv olduğu ilk vaxtlardan başlayaraq nümayəndə heyətləri arasında sıx əməkdaşlığın qurulduğunu məmnunluqla qeyd edib.

Türkiyə ilə Azərbaycanın qardaş ölkələr olduğunu vurğulayan İsmayıl Qəhrəman «Bir millət, iki dövlət» fikrinin artıq hər iki xalqın şüurunda möhkəm yer tutduğunu deyib. O, Türkiyə rəhbərlərinin ilk xarici səfərlərini Azərbaycana etmələrini məmnunluqla vurğulayıb. Azərbaycana əvvəlki səfərlərini xatırlayan İsmayıl Qəhrəman ötən dövrdə Bakıda gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını deyib. Noyabrın 1-də hər iki qardaş ölkədə parlament seçkilərinin uğurla başa çatdığını deyən türkiyəli qonaq əməkdaşlığın və həyata keçirilən müştərək layihələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

## Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** «Lisenziyalaşdırma Qaydası» təsdiq edilsin (əlavə №1).

**2.** «Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri» təsdiq edilsin (Əlavə №2).

**3.** «Dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri» təsdiq edilsin (Əlavə №3).

**4.** «Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı» təsdiq edilsin (Əlavə №4).

**5.** Müəyyən edilsin ki:

5.1. bu Fərmanın qüvvəyə mindiyi gün qüvvədə olan lisenziyalar müddətsiz hesab edilir;

5.2. bu Fərmanın 4 nömrəli əlavəsində göstərilən fəaliyyət növlərinə lisenziyaları Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq icra hakimiyyəti orqanları verirlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. lisenziyalaşdırma qaydasının dəyişməsi və bəzi fəaliyyət növləri üçün lisenziya alınması tələbinin ləğvi ilə əlaqədar, habelə lisenziya alınması tələbi ləğv edilən fəaliyyət növləri ilə məşğul olmaq üçün qanunlarda mövcud olan tələblərin yerinə yetirilməsi üzərində nəzarətin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının müvafiq qanunlarının təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. lisenziya verilməsi üçün tələb olunan şərtlərin (o cümlədən əlavə şərtlərin) sadələşdirilməsi və təkmilləşdirilməsi ilə əlaqədar müvafiq qanun layihələrini Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin təklifləri əsasında iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.3. bu Fərmanın 2 nömrəli əlavəsinin 3-cü, 27-ci, 28-ci və 29-cu hissələrində göstərilən fəaliyyət növləri üzrə lisenziyalaşdırılan iş və xidmətlərin sayının azaldılması barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.4. radioaktiv və ionlaşdırıcı şüalar verən maddələrin tullantılarının basdırılması ilə bağlı fəaliyyətin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.8. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq, lisenziya verən dövlət orqanları lisenziya sahiblərinin müraciətləri əsasında qüvvədə olan lisenziyaların müddətsiz lisenziyalarla əvəz olunmasını təmin etsinlər.

**8.** Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi «Elektron lisenziya» portalının Əsasnaməsinin layihəsini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**9.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**10.** «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 555; 2003, № 3, maddə 153, № 10, maddə 570; 2005, № 2, maddə 69, № 4, maddələr 301, 307, № 8, maddə 721, № 10, maddə 919, № 12, maddələr 1104, 1117; 2006, № 7, maddə 591, № 9, maddə 743, № 11, maddə 945, № 12, maddə 1057; 2007, № 6, maddə 618, №8, maddələr 759, 765, № 10, maddə 943, № 11, maddələr 1098, 1106; 2008, № 8, maddə 718, № 9, maddə 799, № 11, maddə 969, № 12, maddə 1059; 2009, № 2, maddə 64, № 3, maddə 163, № 8, maddələr 619, 621, № 10, maddə 785, № 11, maddə 884; 2010, № 2, maddə 80, № 3, maddə 180, № 9, maddə 776, № 12, maddə 1061; 2011, № 2, maddə 85, № 4, maddə 288, № 6, maddə 491, № 8, maddə 752, № 10, maddə 896; 2012, № 11, maddə 1114, № 12, maddə 1241; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 7, maddə 810, № 9, maddə 107, № 10, maddə 1222; 2015, № 9, maddə 979), 8-ci hissəsi istisna olmaqla, ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 dekabr 2015-ci il**

# Vergilər naziri Yevlaxda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.

Dekabr ayının 18-də vergilər naziri Fazil Məmmədov Yevlax şəhərində Ağdaş, Yevlax, Ucar, Zərdab rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda vergilərin hesablanması və ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildirmişlər.

# Vergi ödəyiciləri ilə görüş

Dekabrın 19-da Vergilər Nazirliyində aksiz markası ilə markalanmalı olan malların istehsalını, idxalını, satışını və alışını həyata keçirən vergi ödəyiciləri ilə görüş keçirilib. Tədbirdə çıxış edən vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov görüşün məqsədinin qanunvericilikdə edilmiş dəyişikliklərlə bağlı məlumat vermək, yeni qaydaları ətraflı izah etmək və bu sahədə yaranan sualları cavablandırmaq olduğunu bildirib. O, ölkə ərazisində aksiz markası ilə markalanmalı olan malların dövriyyəsinin tənzimlənməsi üçün zəruri olan şərtlər və tələblər barədə məlumat verərək bildirib ki, aksizli malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydalarının müəyyən edilməsi və həmin qaydaların tələblərini pozan şəxslərin İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşımaları barədə Vergi Məcəlləsinə müvafiq müddəalar daxil edilib.

İştirakçıların nəzərinə çatdırılıb ki, «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi Qaydaları» 2016-cı ilin yanvar ayının 1-dən qüvvəyə minəcək. Bu sahədə edilmiş dəyişikliklərlə bağlı bildirilib ki, aksiz markaları ilə markalanmalı olan malların nağdsız qaydada satışı nağdsız ödənişlərin stimullaşdırılması, dövriyyənin qanunun tələblərinə tam uyğunlaşdırılması və uçot sisteminin təkmilləşdirilməsinə xidmət edəcək. Ölkədə nağdsız ödənişlərin tətbiqi üçün hər cür şərait var. Cari ilin sonunadək bütün obyektlərin POS-terminalla təmin olunması nəzərdə tutulub.

Daha sonra sahibkarlar tərəfindən verilən çoxsaylı suallar cavablandırılıb, müvafiq məsələlər üzrə ətraflı izahat verilib və vergi ödəyicilərinin təklifləri dinlənilib.

# Əhalinin gəlirlərində artım qeydə alınıb

Bu ilin 11 ayı ərzində ölkə əhalisinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,7% artaraq 36,8 milyard manata çatıb, əhalinin hər nəfərinə düşən gəlirlər isə 3 min 860,5 manat olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, hər nəfərə düşən gəlirlərin əvvəlki ilin eyni dövrünə nisbətən artımı 4,4% təşkil edərək, ölkənin istehlak bazarında qiymətlərin bahalaşmasını 0,7% üstələyib.

Bu dövr ərzində gəlirlərin 75,7%-i son istehlak xərclərinə, 9,5%-i vergilərin, sığorta və üzvlük haqlarının, 3,0%-i kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib, 11,8%-i isə yığıma yönəldilib. Əhalinin sərəncamında qalan gəlirlər 33,3 milyard manat təşkil edərək, əvvəlki ilin eyni dövründəkindən 5,6% çox olub.




# Vergi ödəyiciləri məlumatlandırılır

Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, habelə İnzibati Xətalar, Cinayət, Mülki-Prosessual, Miqrasiya məcəllələrinə və «İcra haqqında» Qanuna vergi qanunvericiliyinin tətbiqi ilə bağlı edilən əlavə və dəyişikliklər barədə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti tərəfindən vergi ödəyicilərinin məlumatlandırılması kampaniyası keçirilir.

Kampaniya çərçivəsində müəyyən edilmiş qrafikə uyğun olaraq, artıq Suraxanı, Sabunçu, Yasamal və Xəzər rayonlarında belə görüşlər keçirilib və dekabrın sonuna kimi Nəsimi, Xətai, Binəqədi, Nərimanov, Nizami rayonlarındakı vergi ödəyiciləri də məlumatlandırılacaq.

Bakı Vergilər Departamentinin Bəyannəmələr, vergi ödəyicilərinə xidmət və uçot idarəsinin şöbə rəisi Məhərrəm Əmiraslanov bildirib ki, görüşlər zamanı Vergi Məcəlləsində əksini tapan yeni anlayışlar, sadələşdirilmiş vergiyə edilən dəyişikliklər, aksizli malların dövriyyəsinə nəzarət, mədən, gəlir və əlavə dəyər vergilərinə edilən dəyişikliklər, nağd pul hesablaşmalarının pozulması zamanı nəzərdə tutulmuş maliyyə sanksiyaları, idman-mərc oyunlarından əldə edilən uduşdan verginin tutulması və digər məsələlər barədə vergi ödəyicilərinə ətraflı məlumat verilir. Ödəyicilərin fəaliyyət göstərdiyi sahəyə uyğun olaraq, onların elektron qutusuna dəyişikliklərin izah olunmuş variantı da göndərilir. Bundan əlavə, vergi ödəyiciləri nazirliyin internet saytı vasitəsilə (www.taxes.gov.az) zəruri məlumatlar əldə edə bilirlər.

Bu görüşlərin əhəmiyyəti bundadır ki, sahibkarlar onlara aydın olmayan məsələlər barədə vergi əməkdaşlarına suallar ünvanlayır və dəyişikliklər hər kəsin başa düşə biləcəyi sadə formada, əyani misallarla şərh və izah edilir.

Vergi ödəyiciləri bu cür tədbirlərin onlar üçün çox faydalı olduğunu bildirirlər.

**Ticarət obyektinin sahibi Səidə Dünyamalıyeva:** «Dövlətin qoyduğu qayda-qanuna əməl etmək hamımızın borcudur. Bir vergi ödəyicisi olaraq fəaliyyətimizi tənzimləyən qayda-qanunlar, yeni əlavə və dəyişikliklər barədə məlumatlı olmağa çalışıram. Vergi Məcəlləsinə edilən dəyişikliklərlə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması çox lazımlı addımdır. Öz adımdan deyə bilərəm ki, bu görüş zamanı qanunvericiliyə edilən yeniliklər və dəyişikliklər barədə bilmədiklərimi öyrəndim».

**İctimai iaşə və tikinti sektorunda mühasib vəzifəsində çalışan Sahib Hüseynov:** «Vergi Məcəlləsinə edilən sonuncu dəyişikliklərdə vergi ödəyicilərinə seçim imkanının verilməsi çox mühüm məqamdır. Dəyişikliklər onu göstərir ki, dövlətimiz əhalinin və eləcə də vergi ödəyicilərinin mənafeyini düşünür və onların daha səmərəli fəaliyyəti üçün variantlar təqdim edir. Təbii ki, bütün yeniliklər kimi, qanuna dəyişiklikləri də hər kəs dərhal eyni səviyyədə qavraya bilmir. Bunun üçün geniş şərhlərə, ətraflı izahata ehtiyac var. Vergilər Nazirliyinin nümayəndələrinin yerlərdə vergi ödəyiciləri ilə görüşməsi bir çox insanlar üçün anlaşılmazlıqlara aydınlıq gətirir. Bu tədbirlər bizə vergini vaxtında ödəməyə, vergidən yayınmamağa stimul verir».

**Pərakəndə satış fəaliyyəti ilə məşğul olan Rəqibə İmanova:** «Vergi Məcəlləsinə və digər qanunvericilik sənədlərinə edilən dəyişikliklərin izahı üçün vergi ödəyiciləri ilə keçirilən görüşlər vergi orqanları əməkdaşları ilə vergi ödəyiciləri arasında yarana biləcək anlaşılmazlıqların qarşısının alınması üçün zəruri addımdır. Biz müxtəlif mənbələrə müraciət etmədən vergi əməkdaşlarının öz dilindən dəyişikliklərin mahiyyətini öyrənirik, bilmədiklərimiz, başa düşməkdə çətinlik çəkdiyimiz məsələlər barədə suallarımıza cavab tapa bilirik. Misal üçün, alkoqollu içkilərin və tütün məmulatlarının satışı, ƏDV və sadələşdirilmiş vergi ilə bağlı mənə aydın olmayan məqamlar vardı ki, burada həmin məsələlərə aydınlıq gətirildi. Hesab edirəm ki, sonuncu dəyişikliklər vergi qanunvericiliyinin daha da təkmilləşdirilməsinə səbəb olub».

**İctimai iaşə fəaliyyəti ilə məşğul olan Müşfiq Nəsirov:** «Qanunvericiliyə edilən dəyişikliklər vətəndaşlar tərəfindən birmənalı olaraq yerinə yetirilməlidir. Bunun üçün məlumatlandırılma çox vacib amildir. Arzu edərdim ki, Vergilər Nazirliyi tərəfindən keçirilən görüşlər mütəmadi xarakter daşısın. Bu, vergi ödəyiciləri ilə vergi orqanları arasında anlaşılmazlıqların qarşısını alar. Mən belə görüşlərə sərf etdiyim vaxtı vergi sahəsində biliyimin daha da artırılması imkanı kimi qiymətləndirirəm».

**AYTƏN**



# Vergilər Nazirliyi iki mükafata layiq görülüb

Azərbaycan İnternet Forumunun təsis etdiyi peşəkar Milli İnternet Mükafatı üzrə Vergilər Nazirliyi iki mükafata layiq görülmüşdür. «Elektron Hökumət»







nominasiyası üzrə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi qalib seçilmişdir. Nazirliyin Facebook şəbəkəsindəki rəsmi səhifəsi isə «Ən yaxşı sosial şəbəkə səhifəsi» nominasiyası üzrə 1-ci yeri tutmuşdur.

Hər il müsabiqə üsulu ilə təqdim edilən bu mükafat sosial, mədəni, elmi, iqtisadi, hüquqi və s. sahələrdə fəaliyyət göstərən, Azərbaycan dilində tərtib olunan milli internet resurslarına və internet layihələrinə verilir. Bu il müsabiqəyə 14 nominasiya üzrə 374 sayt təqdim edilmiş, onlardan 299-u səsvermə üçün qəbul olunmuşdu.

Xatırladaq ki, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi indiyədək «Humay» («İlin ən uğurlu internet layihəsi» nominasiyası), iki dəfə «Netty» («İlin ən yaxşı dövlət saytı» nominasiyası), «Milli NET» («Ən yaxşı dövlət və bələdiyyə saytları» nominasiyası), «İntellekt» ilin layihəsi mükafatına («Maliyyə» nominasiyası üzrə), Media Hüququ İnstitutunun diplomuna (mərkəzi dövlət qurumlarının onlayn şəffaflığı monitorinqinin nəticələrinə görə), Avrasiya Hüquqşünaslar Assosiasiyasının Fəxri diplomuna (Hüquqi maarifləndirmə sahəsindəki fəaliyyətinə görə) və Beynəlxalq World Summit Award («E-Hökumət» nominasiyası) mükafatlarına layiq görülmüşdür.

Bununla yanaşı, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi tərəfindən keçirilən dövlət qurumlarının informasiya açıqlığı üzrə monitorinqinin nəticələrinə görə 7 il ardıcıl olaraq 1-ci yeri tutur.

# Vergi Məcəlləsinə və digər normativ-hüquqi sənədlərə dəyişikliklər və əlavələrə şərhlər

*20 oktyabr 2015-ci il tarixdə Milli Məclis tərəfindən «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir. Vergi Məcəlləsi ilə yanaşı, digər normativ-hüquqi sənədlərdə də vergilərlə bağlı müvafiq dəyişikliklər və əlavələr edilmişdir.*
*Azərbaycan iqtisadiyyatının inkişafının yeni mərhələsinin zəruri tələblərindən irəli gələn bu dəyişikliklər ictimaiyyətin, xüsusilə biznes dairələrinin və vergi ödəyicilərinin böyük marağına səbəb olmuşdur. Bunu nəzərə alaraq, Vergilər Nazirliyinin məsul vəzifəli rəhbərlərinin qanunçuluqda edilmiş dəyişikliklərlə bağlı şərhlərini nəzərinizə çatdırırıq.*

## Fiziki şəxslərin gəlir vergisi

Məcəllədə fiziki şəxslərin gəlir vergisi ilə bağlı iki istiqamət üzrə dəyişiklik edilmişdir. Bunlardan biri fiziki şəxslərin əsas iş yerində aylıq əməkhaqlarına edilən güzəştlərlə, ikincisi isə fiziki şəxslərin idman mərc oyunlarından əldə etdikləri gəlirlərin ödəmə mənbəyində vergiyə cəlb olunmasıdır.

**1. Yeni dəyişikliyə əsasən, əsas iş yerində aylıq gəliri 2500 manatadək və illik gəliri 30.000 manatadək olan fiziki şəxslərin gəlirlərinin müvafiq olaraq ölkə üzrə yaşayış minimumunun 1 və 12 mislinədək olan hissəsinə gəlir vergisi üzrə güzəştin tətbiqi nəzərdə tutulub.**

Bu dəyişikliyi şərh edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinov bildirmişdir ki, hər bir muzdlu işçini düşündürən bu sahədə indiyə qədər müəyyən problemlər var idi. Vergi Məcəlləsindəki dəyişikliklərə qədər əsas iş yerində aylıq əməkhaqqı 250 manat olan fiziki şəxslərin ölkə üzrə yaşayış minimumunun 1 misli qədər, yəni 140 manat çıxılmaqla baza məbləği 14 faiz vergiyə cəlb olunurdu. Adekvat olaraq, həmin şəxslərin illik gəliri 3000 manat olduqda yaşayış minimumunun 12 mislinə bərabər hissəsinə güzəşt tətbiq edilir və vəsaitin qalan hissəsindən vergi tutulurdu. Bu isə əhalinin aztəminatlı hissəsini narahat edirdi. Belə ki, ölkədə davamlı olaraq yaşayış minimumu və əməkhaqlarının artımına baxmayaraq, aylıq gəlirləri 250 manatdan az olan fiziki şəxslərin əməkhaqlarının artırılması nəticə olaraq həmin şəxslərin güzəşt dairəsindən çıxmasına səbəb olurdu. Misal üçün, hazırda 240 manat aylıq əməkhaqqından əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun bir misli, yəni 140 manat çıxıldıqda, qalan 100 manatdan 14 faiz dərəcə ilə 14 manat vergi tutulur və işçiyə 226 manat (240-14=226) ödənilir. Əməkhaqqı 10 faiz artırıldıqda isə bu məbləğ 264 manat təşkil edir. Bu halda, aylıq əməkhaqqı 250 manatdan yuxarı olduğundan 140 manat güzəşt tətbiq edilmir və əməkhaqqının tam məbləğindən 14 faiz dərəcə ilə 37 manat vergi tutulur və fiziki şəxsə 227 manat (264-37=227) ödənilir ki, nəticədə muzdlu işçi həmin artımdan bəhrələnmir. Yəni onun maaşının nominal olaraq 10 faiz artmasına baxmayaq, real gəliri cəmi 1 manat artmış olur.

Ona görə də qeyd olunan halların aradan qaldırılması və əməkhaqlarına tətbiq edilən vergi güzəştinin şamil olunduğu vergi ödəyicilərinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, əsas iş yerində aylıq gəliri 2500 manatadək və illik gəliri 30.000 manatadək olan fiziki şəxslərin gəlirlərinin müvafiq olaraq ölkə üzrə yaşayış minimumunun 1 və 12 mislinədək olan hissəsinə gəlir vergisindən vergi güzəştinin tətbiqi nəzərdə tutulur. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlər 500 mindən çox insanı əhatə etməklə, iş yerlərində əməkhaqlarının leqallaşmasına da müsbət təsir göstərəcək. İşəgötürənlər üçün bu, bir stimul kimi, onların bu sahədə şəffaf iş qurmasına səbəb olacaq.

**2. İdman mərc oyunlarından əldə edilən uduşların ödəmə mənbəyində vergiyə cəlb olunması.**

«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu ilə Vergi Məcəlləsinə 101.5-ci maddə əlavə edilmişdir və bu dəyişikliyə əsasən, 2016-cı ilin yanvar ayının 1-dən idman mərc oyunlarından əldə olunan uduşların 10 faiz dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb edilməsi nəzərdə tutulur.

Vergilər nazirinin Vergi siyasəti məsələləri üzrə müşaviri Akif Musayev bu dəyişikliyi şərh edərək bildirmişdir ki, «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli Qanununun 54-cü maddəsinə əsasən, bədən tərbiyəsi və idman dövlət büdcəsindən ayrılan, bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsindən əldə olunan, idman lotereyasının, idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər, fiziki və hüquqi şəxslərin ianələri hesabına və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən maliyyələşdirilir. 2013-cü ilin yanvar ayının 1-dən etibarən qüvvəyə minmiş «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanuna əsasən, idman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır və dövlət büdcəsinə ödənilirdi.

Qanunvericiliklə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarından əldə olunan uduşlar isə 1 yanvar 2013-cü il tarixdən etibarən fiziki şəxslərin gəlir vergisindən azad edilmişdi. Qeyd olunan vergi güzəştinin tətbiqi ötən 3 il ərzində ölkədə keçirilən idman mərc oyunlarının inkişafını stimullaşdırmaqla bu sahədən əldə edilən gəlirlərin sürətli artımı ilə nəticələnib ki, bu da həmin sahədən əldə edilən uduşların vergiyə cəlb olunmasını zəruri edir. Ona görə də Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə idman mərc oyunlarından əldə olunan uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsini nəzərdə tutan müddəalar daxil edilib.

Bu məsələ ilə bağlı Vergi Məcəlləsinin 150-ci maddəsinə də müvafiq dəyişikliklər edilib: Vergi Məcəlləsinə əlavə edilmiş 150.3-2-ci maddənin müddəalarına əsasən, idman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər həmin uduşlardan 10% həcmində gəlir vergisini hesablamağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə, habelə Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar.

## Sadələşdirilmiş vergi

***Bu vergi növü üzrə dəyişikliklər üç sahəni əhatə edir:***

**1. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq və yaxud bu hüquqdan imtina etməklə ƏDV-nin, mənfəət (gəlir) vergisinin, əmlak vergisinin ödəyicisi olmaq hüququnun verilməsi.**

Vergi Məcəlləsinə «bina» anlayışı daxil edilib. Məcəllənin 13.2.54-cü maddəsinə edilmiş dəyişikliyə əsasən, «bina - insanların yaşaması, fəaliyyəti, təbiət təsirlərindən qorunması, onlara sosial, mədəni və məişət xidmətlərinin göstərilməsi, istehsalat sahələrinin yerləşdirilməsi, maddi dəyərlərin saxlanması üçün nəzərdə tutulmuş qapalı həcm-fəza quruluşuna malik olan tikinti obyekti» hesab olunur. Digər maddələrdə də «mənzil» sözü «bina» sözü ilə, «mənzil tikintisi» anlayışı «bina tikintisi» anlayışı ilə əvəzlənib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Şamil Ərəbov qeyd etmişdir ki, Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan müddəalarına əsasən, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər eyni zamanda həm sadələşdirilmiş verginin, həm də ƏDV-nin ödəyiciləri hesab olunurdular. Həmin şəxslər təməl işlərinə başladıqda tikilən binanın layihə üzrə sahəsinin hər kvadratmetri üçün 10 manat məbləğinə Nazirlər Kabinetinin 22 sentyabr 2007-ci il tarixli 140 nömrəli qərarı ilə təsdiq edilmiş ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsalları tətbiq olunmaqla sadələşdirilmiş vergini hesablayır və müvafiq bəyannaməni vergi orqanlarına təqdim edirdilər. Təməl işlərinə başlanılmış binanın tikilib-tikilməməsindən asılı olmayaraq hesablanmış sadələşdirilmiş vergi bərabər hissələrlə 8 rüb ərzində büdcəyə ödənilirdi.

Bununla yanaşı, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təqdim edilən yaşayış və qeyri-yaşayış sahələrinin hər kvadratmetri üçün 225 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə Nazirlər Kabinetinin 29 fevral 2008-ci il tarixli 62 nömrəli qərarı ilə təsdiq edilmiş əmsallar tətbiq olunmaqla ƏDV tutulan minimum dövriyyə müəyyən edilir, həmin sahələrin təqdim edildiyi ayda ƏDV hesablanaraq büdcəyə ödənilirdi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikləri halda, tikinti-quraşdırma işlərinə başlandığı rübdə tikilən binanın sahəsinin hər kvadratmetri üçün 45 manata Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsallarını tətbiq etməklə sadələşdirilmiş vergi hesablanmalı və hesablanmış vergi bərabər hissələrlə 10 rüb ərzində dövlət büdcəsinə ödənilməlidir (yaşayış sahəsi üzrə hesablama: binanın sahəsi kv.m. x 45 manat x zona əmsalı, qeyri-yaşayış sahəsi üzrə hesablama: binanın sahəsi kv.m. x 45 manat x zona əmsalı x 1,5 əmsal). Bu halda, hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda, onlar tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim olunma dəyərindən ƏDV, təqdim etmədən əldə olunan gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərqdən yaranan mənfəətdən mənfəət (gəlir) vergisi və həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödənilməlidir.

***Nümunə:*** Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən Bakı şəhəri üzrə 1-ci zonada (4,0 əmsal) ümumi sahəsi 10.000 kvadratmetr olan bina tikilir. Layihə-smeta sənədlərinə əsasən, tikiləcək binanın ümumi sahəsinin 8000 kvadratmetri yaşayış sahəsi, 2000 kvadratmetri isə qeyri-yaşayış sahəsindən ibarətdir. Şəxsin bina tikintisi fəaliyyəti ilə bağlı ödəməli olduğu sadələşdirilmiş vergi aşağıdakı kimi hesablanır:

a) Yaşayış sahəsi üzrə: 8000 kv.m. x 45 man. x 4 zona əmsalı =1.440.000 manat;

b) Qeyri-yaşayış sahəsi üzrə: 2000 kv.m. x 45 man. x 4 zona əmsalı x 1.5 əmsal = 540.000 manat;

Cəmi ödənilməli vergi: 1.980.000 manat.

Bu halda şəxs tikinti-quraşdırma işlərinin başlandığı rübdən sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə vergi orqanına sadələşdirilmiş verginin bəyannaməsini təqdim edir və hesablanmış vergini bərabər hissələrlə hər rüb üçün 10 faiz həcmində, yəni 198.000 manat məbləğində olmaqla, öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödəyir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergitutma metodu üzrə seçim hüququnun verilməsi onlar tərəfindən sahibkarlıq fəaliyyətində maliyyə resurslarından səmərəli istifadə edilməsinə və tikinti sektorunun inkişafına şərait yaradacaq, tikinti şirkətlərinin vergi yükü azalacaq. Bundan başqa, hazırda qüvvədə olan qanunvericilik tələb edir ki, sahibkar vergini tikinti başlayan kimi ödəsin. Dəyişikliklərin ən böyük üstünlüklərindən biri budur ki, şirkətlər vergini mənzili satdıqdan sonra ödəyə biləcək ki, bu da bina tikintisini başa çatdırmaq üçün şirkətlərin maliyyə imkanlarını artıracaq. Bundan başqa, sadələşdirilmiş verginin tətbiq olunması mühasibat uçotunu sadələşdirəcək.

**2. Daşınmaz əmlakın təqdim olunmasından əldə edilən gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması.**

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi İlkin Vəliyev mövzunu şərh edərkən, daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlərdən verginin tutulması mexanizminə aydınlıq gətirmişdir. Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan müddəalarına əsasən, mənzillərin və digər daşınmaz əmlakların təqdim edilməsindən, sadə dillə desək, satılmasından əldə olunan gəlirlər əmlakı təqdim edən şəxs tərəfindən vergi orqanlarına müvafiq bəyannamə təqdim edilməklə vergiyə cəlb olunurdu. Əksər hallarda satılan bu cür daşınmaz əmlakların alınmasına, tikintisinə, təmirinə çəkilən xərcləri təsdiq edən sənədlər olmurdu. Bu isə alqı-satqı əməliyyatlarından əldə edilən gəlirlərin vergiyə cəlb olunmasında müəyyən çətinliklər yaradırdı. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə daşınmaz əmlakın təqdim olunması üzrə müqavilələri təsdiq edən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması, 1 bank günü ərzində dövlət büdcəsinə ödənilməsi və aylıq bəyannamənin vergi orqanına təqdim edilməsi nəzərdə tutulur. Nəticədə daşınmaz əmlakın təqdim olunmasından gəlir əldə edən şəxslərin vergi uçotuna alınması və onlar tərəfindən müvafiq bəyannamənin vergi orqanına təqdim edilməsi zərurəti aradan qalxmış olur.

Bu zaman nəzərə alınmalıdır ki, notariuslar tərəfindən tutulan bu vergi sadələşdirilmiş verginin xüsusi bir növüdür və bəyannamənin həm forması, həm də hesabat dövrü ümumi sadələşdirilmiş vergi bəyannaməsindən fərqlənir. Bu bəyannamənin forması daha sadədir, təqdim olunma dövrü isə aylıq olacaqdır. Notariuslar tərəfindən təqdim edilməli bəyannamələrin yeni forması artıq Vergilər Nazirliyi tərəfindən təsdiq olunub.

İdarə rəisinin sözlərinə görə, fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində nəzərdə tutulan ailə üzvləri (ər-arvadlar, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, vərəsələr, doğma (ögey) bacılar (qardaşlar), bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları (qardaşları), qəyyumlar və qəyyumluğa götürülənlər, onların arasındakı ev təsərrüfatı birliyi nəticəsində biri o biri ilə valideyn və övlad kimi bağlı olduqda) tərəfindən verilməsi, daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması, əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi ödəmə mənbəyində vergidən azad edilir.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər vergini hər kvadratmetr sahəyə görə 15 manata müvafiq əmsallar tətbiq etməklə ödəyəcəklər. Həmin əmsallar Vergi Məcəlləsində təsbit edilib. Vergi yaşayış və qeyri-yaşayış sahəsinin ümumi sahəsinə görə hesablanacaq. Qeyri-yaşayış sahələrinin təqdim olunması zamanı isə vergi məbləği əlavə 1,5 əmsal tətbiq edilməklə hesablanacaq.

Bu mexanizmi misallarla izah edək. Təsəvvür edək ki, bir nəfər fiziki şəxs mülkiyyətində olan və Bakı şəhəri üzrə 2-ci zonada (3,0 əmsal) yerləşən 100 kvadratmetr sahəsi olan mənzilini və 3-cü zonada (2,2 əmsal) yerləşən 150 kvadratmetr sahəsi olan ticarət obyektini alqı-satqıya təqdim etmişdir. Bu zaman alqı-satqı əməliyyatlarını rəsmiləşdirən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin məbləği aşağıdakı kimi hesablanır:

Mənzilin satışı üzrə: 100 kv.m. x 15 man. x 3 zona əmsalı = 4500 manat;

Ticarət obyektinin satışı üzrə: 150 kv.m. x 15 man. x 2,2 zona əmsalı x 1.5 əmsal = 7425 manat;

Cəmi ödənilməli vergi: 11.925 manat.

Qeyd edək ki, Azərbaycanda daşınmaz əmlakın təqdim olunmasından əldə edilən gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması həm fiziki, həm də hüquqi şəxslərə tətbiq ediləcək.

**3. Ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda, ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun verilməsi.**

Ticarət və ictimai iaşə sektorunun vergiyə cəlb olunmasında edilmiş dəyişiklik də vergi ödəyicisinin xeyrinə mütərəqqi yenilik hesab edilir. Bu sahədə fəaliyyət göstərən vergi ödəyicilərinin vergi tutulan əməliyyatlarının həcmi 200 min manatlıq həddi keçdikdə belə, həmin şəxslər ƏDV-nin tətbiqindən imtina etmək hüququ qazanaraq, sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyətlərini davam etdirə biləcəklər. Lakin bu halda sadələşdirilmiş verginin dərəcəsi Bakıda 4 faiz, digər regionlarda 2 faiz olmaqla deyil, daha yüksək dərəcələrlə - ticarət sahəsində 6 faiz, ictimai iaşədə isə 8 faizlə hesablanacaq. Xatırladırıq ki, bu, yalnız ticarət və ictimai iaşə sahələrində fəaliyyət göstərən vergi ödəyicilərinə aiddir. Digər sahələrdə isə vergitutma mexanizmi əvvəlki kimi - 2 və 4 faiz qalacaq.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bu dəyişikliyin şərhi ilə bağlı bildirmişdir ki, ƏDV-nin tətbiqindən imtina edərək sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyətin davam etdirilməsi mexanizminin tətbiqi vergi inzibatçılığının sadələşməsi ilə yanaşı, həm də bu sahədə fəaliyyət göstərən ödəyicilərin vergi yükünün azaldılmasına və vergi öhdəliklərinə könüllü əməletmə səviyyəsinin yüksəlməsinə xidmət edəcək.

Araşdırmalar göstərir ki, vergi ödəyicilərinin böyük əksəriyyətində ƏDV ödəyicisi olmaq xofu var. Bu isə vergi ödəyicisini uçot məlumatlarında real dövriyyəni göstərməkdən çəkindirir. Heç kimə sirr deyil ki, vergi bilikləri kifayət qədər yüksək olmayan vergi ödəyicilərinin müəyyən kateqoriyası (bunlara, xüsusilə, ticarətçilər, kafe-yeməkxana sahibləri aiddir) ƏDV sistemindən yayınır, sadə hesablama və bəyanetmə mexanizmi ilə səciyyələnən vahid bir vergi növünün - sadələşdirilmiş verginin ödəyicisi olaraq qalmaq istəyirlər. Fiziki şəxslər üçün gəlir, hüquqi şəxslər üçün isə mənfəət və əmlak vergisinin inzibatçılığı mürəkkəb görünür. Təbii ki, vergi ödəyiciləri bunun ən sadə həlli yolunu əldə olunan vəsaitlərin tam həcmdə nəzarət-kassa aparatlarına vurulmamasında və dövriyyənin gizlədilməsində görürdülər.

Digər tərəfdən, bu dəyişiklik ölkə üzrə nağdsız ödəniş sisteminin inkişafına da təkan vermiş olacaq. Belə ki, POS-terminalların sayının kifayət qədər çox olmasına baxmayaraq, bəzən dövriyyənin qarşısını almaq məqsədilə vergi ödəyicilərinin bir qismi müxtəlif bəhanələrlə alıcıları nağd ödənişə məcbur edir, plastik kartlardan istifadəni əngəlləmək istəyirdilər.

Bütün bu nöqsanlar ticarət və ictimai iaşə sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinə sadələşdirilmiş vergitutma mexanizminin tətbiqi ilə əhəmiyyətli dərəcədə aradan qalxacaq. Bunun müqabilində sözügedən vergi ödəyicilərinə sadələşdirilmiş verginin dərəcəsi əvvəlkinə nisbətən daha yüksək dərəcə ilə hesablanacaq. Belə yanaşma isə daha ədalətlidir. Belə ki, bir tərəfdən, vergi tutulan dövriyyəsi 200 min manatdan artıq olan vergi ödəyicisinin iqtisadi potensialı dövriyyəsi bu məbləğdən aşağı olan vergi ödəyicisi ilə müqayisədə daha yüksəkdir və onların eyni dərəcə ilə vergiyə cəlb olunması ədalətli olmazdı. Digər tərəfdən, yaddan çıxarmaq lazım deyil ki, sadələşdirilmiş vergitutma rejimini seçən şəxslər ƏDV, gəlir, mənfəət və əmlak vergisinin ödənişindən azad edilir ki, bu da vergi ödəyicilərinə böyük güzəşt deməkdir və beləliklə, dövriyyəsi böyük olan ticarət və ictimai iaşə obyektlərinə bir qədər yüksək - müvafiq olaraq 6 və 8 faiz vergi dərəcəsinin tətbiqi tamamilə məntiqlidir.

**Davamı 4-cü səhifədə**

# Vergi Məcəlləsinə və digər normativ-hüquqi sənədlərə dəyişikliklər və əlavələrə şərhlər

**Əvvəli 3-cü səhifədə**

Əlavə edək ki, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə «ticarət» və «ictimai iaşə» anlayışlarının açıqlanması da əksini tapıb. Məcəllənin 13.2.55-ci maddəsində «ticarət fəaliyyəti» anlayışı açıqlanıb: ticarət fəaliyyəti dedikdə, istehsalçılar tərəfindən özlərinin istehsal etdiyi malların təqdim edilməsi istisna olmaqla, malların təqdim edilməsi ilə əlaqədar sahibkarlıq fəaliyyəti başa düşülür. 13.2.56-cı maddəyə əsasən isə «ictimai iaşə fəaliyyəti» - fəaliyyət göstərdiyi xidmət obyektinin ərazisində və ya səyyar qaydada alıcıya istehlak məqsədilə hazırlanmış (bişirilmiş) qida (yeyinti) məhsullarının təqdim edilməsi ilə əlaqədar sahibkarlıq fəaliyyətidir.

## Maliyyə sanksiyaları

Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva bu məsələni şərh edərək bildirmişdir ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklər daha çox sosial, vergi inzibatçılığının sadələşdirilməsi, daha geniş təbəqədə vergi ödəyicilərinin vergi yükünün azaldılmasına xidmət edir. Ona görə də bu fonda sanksiyaların artırılması zəruri addım kimi qəbul edilməlidir. Məcəlləyə edilən son dəyişikliklərdə sanksiyaların artırılması yalnız bir halda müşahidə olunur. Bildiyimiz kimi, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin dövriyyəsi 200.000 manatdan yuxarı olduqda belə, onlar vergi orqanına müraciət edərək sadələşdirilmiş vergitutma rejimini tətbiqetmə hüququnu özlərində saxlaya bilərlər. Bu isə o deməkdir ki, qanun həmin vergi ödəyicilərinə seçim imkanı verməklə, onlara dövriyyəsini daha da şəffaflaşdırmasına və vergi öhdəliklərini icra etmələrinə münbit bir şərait yaratmışdır. Belə ki, 200.000 manatdan yuxarı dövriyyəsi olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər sadələşdirilmiş vergitutma rejimini tətbiq etsələr, onlar ƏDV və gəlir vergisindən azad olunacaqlar. Hüquqi şəxslərsə hətta dövriyyə 200.000 manatdan artıq olduğu halda da bu rejimi seçmiş olsalar, mənfəət, ƏDV və əmlak vergisindən azad ediləcəklər. Qanunun bu qədər geniş azadolma imkanları verdiyi halda ticarət və ictmai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövriyyədən yayınmaq üçün nağd hesablaşma qaydalarının pozulması, yəni alqı-satqı və xidmət əməliyyatlarının nəzarət-kassa aparatına vurulmaması və ya malların ciddi uçot blankı olmadan nağd qaydada təqdim edilməsində sanksiyalar sərtləşdirilir. Bu, yalnız dövriyyəsi 200.000 manatdan artıq olan və sadələşdirilmiş vergitutma rejimini seçən ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə şamil ediləcək ki, onlara nağd hesablaşma qaydalarının pozulmasına görə il ərzində birinci dəfə 2000 manat, ikinci dəfə 4000 manat, növbəti dəfələrdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaqdır. Lakin həmin vergi ödəyiciləri dövriyyəsi 200.000 manatdan artıq olduqda və normal qaydada əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyata durmaq rejimini seçdikdə, müvafiq olaraq 400, 800 və 1200 manat maliyyə sanksiyası tətbiq ediləcək.

Ticarət və ictimai iaşədə, eləcə də digər sahələrdə fəaliyyət göstərən və illik dövriyyəsi 200.000 manatdan az olan vergi ödəyicilərinə tətbiq olunan sanksiyaların məbləğləri də yenə əvvəlki kimi, müvafiq olaraq, 400, 800 və 1200 manat təşkil edəcəkdir.

## Əlavə dəyər vergisi

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən biri də ƏDV-nin məqsədləri üçün ərizəvermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcminin 120 min manatdan 200 min manatadək, ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin isə 60 min manatdan 100 min manatadək artırılması ilə bağlıdır.

Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarənin rəisinin 1-ci müavini Elçin Bəylərov bildirmişdir ki, Vergi Məcəlləsinə edilmiş bu dəyişiklik ölkə iqtisadiyyatının davamlı inkişafının təmin olunması və stimullaşdırılması üçün yeni vergi mexanizmlərindən istifadə etməyə imkan yaradacaq. Bu dəyişikliklər vergitutma bazasının genişləndirilməsi və mövcud vergi potensialından daha səmərəli istifadə olunması məqsədi daşıyır.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 155.1-ci maddəsinə əsasən, sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120 min manatdan artıq olan vergi ödəyiciləri ƏDV-nin məqsədləri üçün qeydiyyata alınırdılar və vergiləri 18 faiz dərəcə ilə ödəməli idilər. Hazırkı dəyişikliklərə əsasən isə sahibkarlıq fəaliyyəti göstərən və ƏDV-nin məqsədləri üçün ərizəvermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 200 min manatadək artırılıb. Başqa sözlə desək, ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200 min manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində Bakı şəhərində vergilərini 4 faiz, digər regionlarda isə 2 faiz dərəcə ilə fəaliyyətlərini davam etdirməyə imkan yaradacaq. Bu isə vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, həmin vergi ödəyicilərinin vergi yükünün əhəmiyyətli dərəcədə azaldılmasını təmin edəcək.

Daha bir mühüm məqam da budur ki, dəyişikliklərə əsasən, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə dövriyyəsindən asılı olmayaraq, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ verilir. Ticarət və ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarların satış dövriyyəsi 200 min manatı keçdiyi halda belə, onlar öz istəklərindən asılı olaraq, əvvəlki kimi sadələşdirilmiş verginin ödəyicisi ola biləcəklər. Bu halda, əldə edilən ümumi pul hasilatının həcminə ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi tətbiq ediləcək.

> *Ticarət və ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarların satış dövriyyəsi 200 min manatı keçdiyi halda belə, onlar öz istəklərindən asılı olaraq, əvvəlki kimi sadələşdirilmiş verginin ödəyicisi ola biləcəklər. Bu halda, əldə edilən ümumi pul hasilatının həcminə ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi tətbiq ediləcək*

Vergi Məcəlləsinə edilmiş bu dəyişiklik ticarət və ictimai iaşə sahəsində fəaliyyət göstərən və dövriyyəsi 200 min manatdan artıq olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edib-etməməklə bağlı alternativ seçim hüququ da verir. Yəni həmin şəxslər ya yuxarıda qeyd olunan şərtlərlə sadələşdirilmiş vergi ödəyicisi ola bilər, ya da ümumi qaydada ƏDV ödəyicisi kimi qeydiyyata alınaraq ƏDV, ilin yekunlarına əsasən mənfəət (gəlir) və hüquqi şəxslər isə həm də əmlak vergilərini dövlət büdcəsinə ödəyə bilərlər.

Vergi Məcəlləsinin 158.2-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, ƏDV qeydiyyatının ləğvi üçün vergitutma əməliyyatlarının həcminin əvvəlki tam 12 təqvim ayı ərzində 60.000 manatdan 100.000 manata qədər artırılması ƏDV qeydiyyatında olan şəxslərə ƏDV qeydiyyatının bu meyar üzrə ləğv edilməsinə və sadələşdirilmiş vergitutma metodunun tətbiq olunmasına şərait yaradacaq. Əvvəlki qaydaya görə, məsələn, vergi ödəyicisinin 2014-cü il sentyabr ayından 2015-ci il avqust ayı daxil olmaqla ardıcıl 12 təqvim ayında ƏDV üzrə vergi tutulan əməliyyatlarının həcmi 60.000 manatdan az olduğu halda, həmin vergi ödəyicisi vergi orqanına ərizə verməklə ƏDV qeydiyyatından çıxa bilirdi. Həmin şəxsin ƏDV tutulan dövriyyəsi 60.000 manatdan çox olduqda, yəni, misal üçün: 75.000 manat olardısa ƏDV qeydiyyatından çıxmaq hüququ olmurdu. Müvafiq dəyişiklikdən sonra vergi ödəyicisinin 2015-ci ilin yanvar-dekabr aylarında ƏDV tutulan əməliyyatlarının həcmi 100.000 manatdan aşağı olduqda, misal üçün: 90.000 manat təşkil etdikdə belə, ƏDV qeydiyyatından çıxmasına və vergini sadələşdirilmiş qaydada ödəməsinə şərait yaranmış olur.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 164.2-ci maddəsinə əsasən, Nazirlər Kabineti konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilərdi. Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli 11 nömrəli Qərarı ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahıları təsdiq edilmişdi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə prioritet sahələr üzrə idxalda ƏDV-dən azadolmaların siyahısı Vergi Məcəlləsinə daxil edilmişdir.

## Hüquqi şəxslərin əmlak vergisi

Son illər ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsində əldə edilmiş nailiyyətlər sırasında «Azerspace» telekommunikasiya peykinin uğurla orbitə çıxarılmasının xüsusi yeri vardır. Dünya peyk xidmətləri bazarında yüksək rəqabət mühiti mövcuddur ki, burada «Azərkosmos» ASC kimi yeni bazar iştirakçılarına rəqabətədavamlı fəaliyyət göstərmək üçün müəyyən vaxt tələb olunur. Bu səbəbdən, bir çox ölkələrdə kosmik sənaye sahəsində çalışan şirkətlərin rəqabət qabiliyyətini artırmaq üçün onlara vergi və gömrük güzəştləri tətbiq edilir. Bu addımların sırasında kosmik əmlakın əmlak vergisindən azad olunması ilə bağlı güzəştlər xüsusi əhəmiyyət kəsb edir.

Bununla əlaqədar olaraq, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, peyklər və digər kosmik obyektlər əmlak vergisindən azad edilmişdir.

## Mədən vergisi

Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən indiyədək mədən vergisinin dərəcələrində dəyişikliklər edilməmişdi. Ölkədə aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində tikinti və sənaye sektorunun inkişafı qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisinin dərəcələrinə yenidən baxılmasını zəruri edir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisi dərəcələrinin optimallaşdırılması dövlət və bələdiyyə büdcələrinin daxilolmalarına müsbət təsir göstərəcəkdir.

## Vergi borcları olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması

Vergi Məcəlləsinə edilmiş sonuncu dəyişikliklər sırasında hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin olunması üsulu kimi vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı vergi orqanlarına səlahiyyətlərin verilməsi vergi borclarının alınması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə atılmış mühüm addımlardandır.

Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi Zeynalabdin Məmmədzadə dəyişikliyi şərh edərək bildirib ki, yeni qaydalara əsasən, bu məsələ ilə bağlı məhkəməyə müraciət etmək vergi orqanlarının hüquqlarına aid edilib. Bununla yanaşı, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində edilən dəyişikliklərə əsasən, istər Azərbaycan Respublikası vətəndaşının, istərsə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vergi borcu olduğu halda, vergi orqanlarının müraciətlərinə əsasən, məhkəmə qərarı ilə onların ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır.

Qeyd olunan məsələ ilə əlaqədar məhkəmələrdə vergi orqanlarının müraciətlərinə baxılması qaydasını və mexanizmini tənzimləmək məqsədilə Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində də müvafiq dəyişikliklər edilib. Dəyişikliyə əsasən, vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında vergi orqanı tərəfindən məhkəməyə təqdim olunmuş ərizəyə məhkəmə tərəfindən 10 gün müddətinə baxılır. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşə baxılma vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə salır. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin olunması barədə qətnamə qəbul edir. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəmə tərəfindən təmin olunaraq müvafiq qətnamə qəbul edildikdən sonra ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda, vergi orqanı müvafiq ərizə ilə məhkəməyə müraciət edir və məhkəmə tərəfindən iki iş günü ərzində həmin məhdudlaşdırmanın götürülməsi barədə qətnamə qəbul olunur.

«İcra haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər. Bu Qanuna edilmiş dəyişikliyə əsasən, borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının məhkəmə qərarları əsasında verilmiş icra sənədləri ilə yanaşı, həm də vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədləri əsasında da həyata keçirilə bilər.

Son dəyişikliklərə əsasən, yalnız fiziki şəxslərin deyil, həmçinin hüquqi şəxslərin icra orqanının rəhbərinin də ölkədən getmək hüququ məhdudlaşdırıla bilər. Bu isə onunla əlaqədardır ki, əvvəllər yalnız fiziki şəxslərin ölkədən getmək hüququ məhdudlaşdırılır, əksər hallarda onlardan dəfələrlə çox vergi borcu olan hüquqi şəxslərin (müəssisələrin, şirkətlərin və s.) rəhbərləri isə büdcədən yayındırdıqları vəsaitləri ölkədən kənarda rahat şəkildə xərcləyir, istədiklərini edə bilirdilər. Məcəlləyə edilmiş dəyişikliyə əsasən, bu ədalətsizliyin də qarşısı alınıb.

Hazırda vergi borcuna görə 160-a yaxın fiziki şəxsin ölkədən getmək hüququna məhdudiyyət qoyulub və gələcəkdə intizamsız vergi ödəyicilərinə qarşı belə tədbirlərin daha geniş tətbiq ediləcəyi istisna deyil.

## Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi

Kütləvi informasiya vasitələrinin nümayəndələri ilə keçirilən görüşdə bununla bağlı ətraflı açıqlama verən vergilər nazirinin 1-ci müavini Natiq Əmirov bildirib ki, spirtli içkilərin ölkə ərazisində dövriyyəsinin tənzimlənməsində yeni qaydaların tətbiq edilməsində əsas məqsəd büdcəyə əlavə vergilərin cəlb olunmasından daha çox nağdsız ödənişlərin stimullaşdırılması, əməliyyatların şəffaflığının təmin edilməsidir. Aksiz markası ilə markalanmalı olan mallar yalnız müəyyən şərtlərə əməl olunduğu təqdirdə, müvafiq lisenziyası olan şəxslər tərəfindən alınıb-satıla bilər. Bu zaman vergi ödəyicisində həmin malların satışını təsdiq edən ciddi uçot blankları, qaimə-fakturalar olmalı və satış yalnız nağdsız qaydada həyata keçirilməlidir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sözügedən qaydaların tətbiq olunmasına və onlara əməl edilməsinə, müvafiq icra orqanlarının qoyduğu tələblərin yerinə yetirilməsinə nəzarət vergi orqanlarının səlahiyyətinə aid edilmişdir. Vergi əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı qanun pozuntuları aşkar edilərsə, vergi ödəyicilərinə münasibətdə istər İnzibati Xətalar, istərsə də Cinayət məcəllələrində müəyyən olunan cəzalar tətbiq ediləcəkdir.

Aksiz markaları ilə markalanmalı olan malların, tütün məmulatlarının satışı istisna olmaqla, az miqdarda, yəni 50 manatadək nağd satışı və yaxud satış məqsədilə nağd qaydada alınması inzibati tənbeh tədbirinin görülməsi üçün əsasdır. Bu halda, vergi ödəyicisinə inzibati sanksiyalar tətbiq olunur və 100 manat miqdarında cərimə edilir. Aksiz markaları ilə markalanmalı olan malların, tütün məhsullarının pərakəndə satışı istisna olmaqla, xeyli miqdarda və külli miqdarda satılması və ya satış məqsədilə alınması artıq cinayət məsuliyyəti yaradır. Xeyli miqdarda - yəni 50 manatdan 1000 manata qədər olduqda, belə hallara yol verən şəxslər 1000 manatdan 2000 manata qədər cərimə olunacaqlar və ya bir ilədək müddətdə islah işləri və ya bir ilədək azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılacaqlar. Aksiz markası ilə markalanmalı olan malların nağd qaydada alış-verişi külli miqdarda həyata keçirilərsə, bu zaman daha ciddi cəzalar - 2 ilədək islah və ya 2 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq olunacaqdır.

Bununla paralel olaraq, Cinayət Məcəlləsində bütövlükdə aksizli malların alğı-satqısı ilə bağlı ciddi dəyişikliklər edilib. Əvvəllər sözügüdən məcəllədə saxta aksiz markalarının hazırlanması, əldə edilməsi, saxlanması və satılması cinayət əməli hesab olunsa da, artıq həmin maddə daha da təkmilləşdirilərək, əlavə müddəalarla genişləndirilmişdir. Dəyişikliyə əsasən, aksiz malları ilə markalanmalı olan mallara saxta aksiz markalarının yapışdırılması, saxta aksizli malların satılması, saxlanması, satış məqsədilə alınması cinayət məsuliyyətinə səbəb olur. Bu əməllərə yol vermiş şəxslər 1000 manatdan 2000 manatadək cərimə, 2 ilədək islah işləri və ya 3 ilə qədər müddətdə azadlıqdan məhrumedilmə ilə cəzalandırılacaqlar. Burada çox həssas bir məqam var - qanunvericiliyə edilmiş dəyişikliklərin tələblərinə nəzər salsaq görərik ki, Cinayət Məcəlləsinə bir qeyd əlavə olunub: əgər vergi orqanları tərəfindən keçirilmiş nəzarət tədbirləri zamanı vergi ödəyicisində saxta aksiz markası yapışdırılmış malların saxlandığı və yaxud satıldığı aşkar olunarsa, lakin vergi ödəyicisi vergi orqanlarına həmin malları kimdən aldığını göstərən ciddi hesabat blanklarını, qaimə-fakturaları təqdim edərsə, o, cinayət məsuliyyətinə cəlb olunmayacaq. Çünki təqdim olunan ciddi hesabat blankları əsasında vergi və aidiyyəti istintaq orqanları həmin malların mənbəyini aşkar edərək, qanunu pozanları cinayət məsuliyyətinə cəlb edə biləcəklər. Bu isə qanunvericilikdə məhz əməli törətmiş şəxsin müəyyən edilməsində, gələcəkdə yarana biləcək mübahisələrin qarşısının alınmasında çox mühüm məqamdır.

Spirtli içkilərin plastik kartlarla satışı üçün Azərbaycanda lazım olan hər bir şərait mövcuddur. Ölkədə 6 milyona yaxın plastik kart, 84 mindən çox POS-terminal var. Alkoqollu içkilərin satışı ilə məşğul olan, lakin POS-terminal quraşdırılmamış ticarət obyektlərinin siyahısı Vergilər Nazirliyindədir və 2016-cı ilin yanvar ayının 1-dək həmin obyektləri təmin etmək üçün ölkədə kifayət qədər POS-terminal ehtiyatı var. Onu da xatırlatmaq yerinə düşər ki, POS-terminalların quraşdırılması pulsuz həyata keçirilir.

İctimai iaşə müəssisələrində, kafe və restoranlarda isə ödənişlərin nağd qaydada aparılması mümkündür, çünki alkoqollu içkilər burada menyuya daxil edilir və qablaşdırılmış şəkildə (şüşələrdə) satılmır.

# Qanun hamı üçün birdir

*Son vaxtlar şou-biznes təmsilçilərinin vergiləri necə ödəmələrinin kütləvi informasiya vasitələrinin diqqət mərkəzindəki məsələlərdən biri olduğunu nəzərə alaraq, Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş idarəsində bu sahədə hansı dəyişikliklər olduğu ilə maraqlandıq. İdarədən verilən məlumatı diqqətinizə çatdırırıq.*

Son bir neçə ay ərzində vergi orqanları tərəfindən görülmüş tədbirlər nəticəsində şou-biznes sahəsində fəaliyyət göstərən xeyli fiziki şəxs vergi uçotuna alınmış, uçotda olanlar isə vergi borcunun bir hissəsini ödəmişlər. Bununla yanaşı, şou-biznesdə çalışan və kifayət qədər gəlir əldə edənlərin bəziləri hələ də qanunla müəyyən olunmuş vergilərin ödənilməsinin vacibliyini sözdə qəbul etsələr də, işdə qanunun tələblərinə əməl etmirlər. Onlarla keçirilən görüşlər zamanı vergilərin vaxtında və tam həcmdə ödənilməməsinin səbəbləri ilə bağlı bu bəhanələri əsas gətirirlər:

- «Vergi ödəməyə imkanım yoxdur»;
- «Vergiləri ödəsəm, onda gərək köməkçilərimə, birgə çalışdığım şəxslərə əməkhaqqı verməyim»;
- «Mən sənət adamıyam, geyimimə xeyli pul xərcləməyə məcburam»;
- «Özümdən başqa ailə üzvlərimə, qohumlarıma da kömək etdiyim üçün vergiləri ödəyə bilmirəm»;
- «Vergiləri ödəsəm, gərək klip çəkdirməyim» və s...

Bu bəhanələrə şərh vermək istəməsək də, qeyd etməliyik ki, bunları söyləyən şəxslərin keçirdiyi həyat tərzi dediklərinin tam əksini göstərir və bunu sübut etmək o qədər də çətin deyil. Təəssüf doğuran cəhətlərdən biri də odur ki, vətənə, dövlətə sədaqətindən ağızdolusu dəm vuran bu insanlar dövlətin vergisini bütün şəxsi istəklərini həyata keçirdikdən sonra, əgər vəsait qalarsa, ödəməyi düşünürlər.

Belələrinə xatırlatmaq istəyirik:

**1)** Vergi ödəmək hər kəsin Konstitusiya borcudur.

**2)** Vergi Məcəlləsinin 16.1.1. maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri, habelə bu məcəllə ilə müəyyən olunmuş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək vergi ödəyicisinin borcudur.

**3)** Vergi Məcəlləsinin 24.0.2. maddəsinə əsasən, vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək vergi orqanlarının vəzifəsidir.

Göründüyü kimi, vergilərin düzgün hesablanması, vaxtında və tam ödənilməsi üçün yalnız və yalnız vergi ödəyiciləri məsuliyyət daşıyırlar. Lakin bu heç də o demək deyildir ki, hər intizamsız vergi ödəyicisinin başının üstündə bir vergi orqanı əməkdaşı dayanmalıdır. Ölkəmizdə mövcud olan vergi inzibatçılığı ciddi nəzarəti təmin etməyə imkan verir və əgər bundan sonra da kimsə yenə əvvəlki kimi vergidən yayınmağa cəhd göstərəcəksə, belələrinə qarşı qanun tam gücü ilə tətbiq ediləcək. Bu, bütün dünyada belədir və tanınmışlar dövlət qarşısında borclarının, o cümlədən vergi borclarının yerinə yetirilməsində başqalarına da nümunə göstərməlidirlər.

Qanun hamı üçün birdir! Bir neçə gün əvvəl KİV-də yayılmış bir məlumat bunu əyani təsdiq edir. Dünyanın ən məşhur opera müğənnilərindən olan ispaniyalı Monserrat Kabalyeyə vergi borcuna görə cərimə kəsilib və 82 yaşlı bu qadın 6 aylıq həbs edilib. O, həm vergiləri və cərimələri ödəməyə məcbur edilib, həm də həbs cəzası alıb. Çox istərdik ki, bizdə belə hallar olmasın...

## Vergi borcu olan şou-biznes nümayəndələrinin siyahısı

| Vergi ödəyicisinin adı | Qeydiyyatda olduğu vergi orqanı |
|---|---|
| ŞERON QRUPU MMC | Bakı Vergilər Departamenti |
| QASIMOV AYAZ EYVAZ OĞLU | Bakı Vergilər Departamenti |
| HÜSEYNOV ZAMİQ ƏSGƏR OĞLU | Bakı Vergilər Departamenti |
| İSMAYILOVA RƏQSANƏ İSMAYIL QIZI | Bakı Vergilər Departamenti |
| NİSANOV XƏYYAM ALEKSANDROVİÇ | Bakı Vergilər Departamenti |
| BƏDƏLOV EMİL NAMİQ OĞLU | Bakı Vergilər Departamenti |
| CƏLİLOV YAŞAR ZAHİD OĞLU | Bakı Vergilər Departamenti |
| SÜLEYMAN AKİF SÜLEYMAN OĞLU | Bakı Vergilər Departamenti |
| AXUNDOV RÜFƏT RAFİQ OĞLU | Bakı Vergilər Departamenti |
| ƏLİYEV CEYHUN ABDUL OĞLU | Bakı Vergilər Departamenti |
| MUSAYEVA SEVİNC AYDIN QIZI | Bakı Vergilər Departamenti |
| MƏMMƏDOV ELVİN SƏYYAD OĞLU | Bakı Vergilər Departamenti |
| ALLAHVERDİYEV VÜQAR ZAKİR OĞLU | Bakı Vergilər Departamenti |
| CAVADOV YAQUB İBAD OĞLU | Bakı Vergilər Departamenti |
| MUSAYEV İNTİQAM BƏHMƏN OĞLU | Bakı Vergilər Departamenti |
| QASIMOV NATİQ YUNUS OĞLU | Bakı Vergilər Departamenti |
| NOVRUZLU TURAL SULTAN OĞLU | Bakı Vergilər Departamenti |
| SÜLEYMANOV MURAD SÜLEYMAN OĞLU | Bakı Vergilər Departamenti |
| BƏDƏLOV NAMİQ ƏLİHƏSƏN OĞLU | Bakı Vergilər Departamenti |
| ƏLİYEV NİZAMİ TOFİQ OĞLU | Bakı Vergilər Departamenti |
| HÜSEYNOV TURAL MƏSTAN OĞLU | Bakı Vergilər Departamenti |
| QAFAROV AZƏR MİRHÜSEYN OĞLU | Bakı Vergilər Departamenti |
| RZAYEV VASİF VAQİF OĞLU | Bakı Vergilər Departamenti |
| ABDULOV SƏNAN SALMAN OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| RƏCƏBOV CAVAD HƏNİFƏ OĞLU | 6 saylı Ərazi Vergilər İdarəsi |
| SALMANOV EMİN SALMAN OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| ZEYNALOV SAMİR NADİR OĞLU | 5 saylı Ərazi Vergilər İdarəsi |
| XALIQZADƏ MEHMAN CAHANGİR OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| MUSAYEV VÜSAL SAHİB OĞLU | 11 saylı Ərazi Vergilər Departamenti |
| DADAŞOV RAMİN CAMAL OĞLU | 4 saylı Ərazi Vergilər İdarəsi |
| FƏRZALİYEV MALİK ŞAKƏRƏM OĞLU | 4 saylı Ərazi Vergilər İdarəsi |
| SALMANOV ELŞAD BƏHMƏN OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| MUXTAROV VAQİF FƏQANİ OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| NƏCƏFOV VASİF YUSİF OĞLU | 11 saylı Ərazi Vergilər Departamenti |
| DADAŞOV NAZİM CAMAL OĞLU | 4 saylı Ərazi Vergilər İdarəsi |
| ABBASOV ŞÖHRƏT DUMAN OĞLU | 11 saylı Ərazi Vergilər Departamenti |
| ƏLİYEV ELNUR ELŞƏN OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| CAVADOV RASİM ƏLİƏSGƏR OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| BAĞIYEV MEHMAN ZAHİD OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |
| ABDULLAYEV RAFİQ TAĞI OĞLU | 11 saylı Ərazi Vergilər Departamenti |
| ƏHMƏDOV FARİZ ƏZİZ OĞLU | 2 saylı Ərazi Vergilər Departamenti |

Qəzetimizin bu buraxılışında nazirlikdən verilmiş vergi borclarını ödəməkdən yayınan bir qrup vergi ödəyicisinin siyahısı ilə tanış ola bilərsiniz. Bizə bildirdilər ki, hələlik bu siyahıya borclarının xeyli hissəsini ödəmiş vergi ödəyicilərinin adları daxil edilməyib. Əsasən, sadələşdirilmiş vergi ödəyiciləri olan şou-biznes nümayəndələri növbəti bəyannamələrini yanvar ayının ortasında təqdim etdikləri üçün daha geniş siyahı gələn ayın axırlarında təqdim olunacaq və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görüləcək.

Bunu istəməyənlər qarşıdakı bir ay ərzində bütün vergi borclarını ödəməlidirlər.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanda Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının elektron portalının yaradılması istiqamətində işlər aparılır.

Lisenziyaların verilməsi zamanı «bir pəncərə» prinsipi tətbiq olunacaq.

Azərbaycan və Səudiyyə Ərəbistanı alternativ enerji sahəsində əməkdaşlığı genişləndirmək qərarına gəliblər.

Azərbaycanda yerləşən «Baku Expo Mərkəzi»ndə ilk dəfə «Daşınmaz əmlak» sərgisi keçiriləcək.

«Lisenziyalar və icazələr haqqında» qanun layihəsinə dəyişikliklər nəzərdə tutulub.

Azərbaycanda istehsal olunan günəş panelləri Almaniyaya ixrac ediləcək.

Gələn ilin birinci yarısında Neftçala rayonunda ilk sənaye məhəlləsi fəaliyyətə başlayacaq.

Azərbaycan və İran mərkəzi bankları arasında vahid sistemin yaradılması istiqamətində işlər görülür.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində «Elektron Hökumət Təlim-Tədris Mərkəzi» MMC yaradılıb.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2015-ci ilin yanvar-noyabr aylarında:**

- Azərbaycanda **50,1 milyard** manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə **3,1%** çox ümumi daxili məhsul istehsal olunub.
- Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən **24 milyard** manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə **3%** çox sənaye məhsulu istehsal edilib.
- Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **7,5%,** neft sektorunda isə **0,6%** artıb.
- Mədənçıxarma sektorunda məhsul istehsalı **2,8%,** o cümlədən əmtəəlik qaz hasilatı 6,3% artıb, neft hasilatı isə **0,4%** azalıb.
- İstehlakçılara **22,4 milyard** manatlıq və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə **11,1%** çox məhsul satılıb.
- Ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə satışın həcmi **9,6%** artaraq **11185,2 milyon** manata, qeyri-ərzaq məhsulları üzrə isə **13,5%** artaraq 11249,4 milyon manata çatıb.
- Elektron pərakəndə ticarət dövriyyəsinin həcmi əvvəlki ilin eyni dövrünə nisbətən **2** dəfə artaraq **11,5 milyon** manat təşkil edib.

## Azərbaycan Respublikasının ərazisində aksiz markası ilə markalanmalı olan malların istehsalını, idxalını, satışını və alışını həyata keçirən vergi ödəyicilərinin NƏZƏRİNƏ!

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli fərmanında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidentinin 7 dekabr 700 nömrəli Fərmanı ilə «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları» təsdiq edilmişdir.

2016-cı ilin yanvarın 1-dən qüvvəyə minəcək bu qaydalar aksiz markaları ilə markalanmalı olan malların (iaşə xidməti göstərilən obyektlərdə qablaşdırılmadan satılan mallar istisna olmaqla), içməli spirtin, spirtli içkilərin bütün növlərinin, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin, tütün məmulatlarının istehsal binasının hüdudlarından kənara çıxarılmasının, idxalının və ya təqdim edilməsinin şərtlərini müəyyən edir.

Qaydaların tələblərinə əsasən, aksiz markaları ilə markalanmalı malların (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) satılması və satış məqsədi ilə alınması zamanı həmin malların dəyərinin nağd qaydada ödənilməsinə yol verilmir və həmin malların təqdim edilməsi (fiziki şəxslərin fərdi istehlakının ödənilməsi məqsədi ilə pərakəndə ticarət və iaşə obyektlərində təqdim edilmə halları istisna olmaqla) ciddi hesabat blankı ilə rəsmiləşdirilməlidir.

Qaydalarda göstərilir ki, aksiz markaları ilə markalanmalı malları istehsal edən, idxal edən, satan və alan (fərdi istehlakının ödənilməsi məqsədi ilə alan fiziki şəxslər istisna olmaqla) şəxslər həmin malların əldə edilməsini təsdiq edən müvafiq sənədləri bu sahədə nəzarəti həyata keçirən Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına onların tələbi ilə təqdim etməlidirlər.

Eyni zamanda «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20 oktyabr 2015-ci il 1384-IVQD nömrəli, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20 oktyabr 2015-ci il № 1389-IVQD nömrəli və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20 oktyabr 2015-ci il tarixli 1388-IVQD nömrəli qanunları ilə Vergi, İnzibati Xətalar və Cinayət Məcəllələrinə dəyişikliklər edilmişdir.

Vergi Məcəlləsinin 50.1.9-cu maddəsinə əsasən, aksiz markaları ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi ilə bağlı qaydalara əməl olunmasına nəzarət Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.

Vergi Məcəlləsinin 194.1-1-ci maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və həmin qaydaların tələblərini pozan şəxs Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.

İnzibati Xətalar Məcəlləsinin 229.2-ci maddəsinə əsasən tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda (əlli manatadək) satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda (əlli manatadək) alınması inzibati məsuliyyətə səbəb olur və belə əməllərə görə yüz manat cərimə nəzərdə tutulur.

Cinayət Məcəlləsinin 213-1.3-cü maddəsinə əsasən tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda (əlli manatdan min manatadək) satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda (əlli manatdan min manatadək) alınmasın cinayət məsuliyyəti yaradır və belə əməllərə görə min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 213-1.4-cü maddəsində isə göstərilir ki, eyni əməllər külli miqdarda (min manatdan yuxarı) olmaqla törədildikdə iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Beləliklə, 1 yanvar 2016-cı il tarixdən tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan malların əlli manatadək məbləğdə nağd qaydada alınması və satılması İnzibati Xətalar Məcəlləsinə əsasən yüz manat cərimıəyə, həmin malların əlli manatdan yuxarı məbləğdə nağd qaydada alınması və satılması isə Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyətinə səbəb olacaqdır.

Qeyd edilənlərlə bağlı satış (iaşə) obyektlərində hazırda qalıqda olan və 1 yanvar 2016-cı il tarixədək alınacaq aksiz markası ilə markalanmalı olan malların inventarizasiyasının aparılmasının və həmin malların sənədləşməsinin 1 yanvar 2016-cı il tarixədək yuxarıda göstərilən tələblərə uyğunlaşdırılması tövsiyə olunur.

Vergi ödəyicilərinin bir daha nəzərinə çatdırırıq ki, əks təqdirdə, inzibati və cinayət məsuliyyətinə səbəb ola biləcək cəzalara məruz qala bilərsiniz və bu halda məsuliyyət öz üzərinizə düşəcəkdir.

Sizi maraqlandıran suallarla bağlı Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının
baş redaktoru, audit üzrə mütəxəssis

## Audit

>

Hörmətli oxucular, şou-biznesə aid fəaliyyətlərlə məşğul olan müğənnilərin (müğənniliklə məşğul olan fiziki şəxslərin) xərcləri barədə təhlillərimizi davam etdiririk. Bu dəfə müğənnilərin sahibkarlıq fəaliyyəti zamanı çəkdikləri qrim və geyim xərclərinə toxunacağıq.

**Qrim və geyim xərcləri.** İlk baxışda qrim və geyim xərcləri insanın şəxsi istehlakı kimi qəbul edilə bilər. Lakin müğənnilik fəaliyyətində bilavasitə belə xərclərin çəkilməsi zərurəti yaranır. Bu baxımdan, sahibkarlıq istiqamətində müğənnilik fəaliyyəti həyata keçirən fiziki şəxs bu fəaliyyətinin məqsədləri üçün çəkdiyi qrim və geyim xərclərini vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edə bilər. Müğənni konsert salonlarında, restoranlarda və digər əyləncə obyektlərində ifaçılığını nümayiş etdirərkən əvvəlcədən xüsusi geyimlər əldə edə və qrimlənə bilər. Hətta ifa zamanı geyimlərini və qrimini bir və ya birneçə dəfə dəyişdirə (yeniləyə) bilər. Belə hallar müğənnilik fəaliyyətinin xüsusiyyətlərinə uyğundur. Lakin konkret müğənnilik fəaliyyətinin həyata keçirilməsi məqsədindən kənar qrim və geyim xərclərinin vergitutmada gəlirdən çıxılan xərclərə aid edilməsi düzgün deyildir.

Müğənninin geyim ləvazimatlarına paltarlar, ayaqqabı və aksesuarları (bəzək əşyalarını) aid etmək olar. İfaçılıq zamanı müğənninin istifadə etdiyi bu əşyaların xərclərə aid edilməsi məsələsi ifaçılıq (müğənnilik) xidmətlərinin göstərilməsi ilə əlaqədar bağlanılan müqavilələrdən asılı ola bilər. Adətən, müğənni özünün bu əşyalarla təminatını konserti və ya hər hansı şou təqdimatı təşkil edən təşkilatçının (prodüserin və ya hər hansı digər şou proqramları həyata keçirənlərin) üzərinə qoyur. Bu halda, müğənninin ifa zamanı istifadə etdiyi qrim və geyim xərcləri onun xərcləri hesab edilə bilməz və bu xərclər müğənni ilə prodüser (təşkilatçı) arasında bağlanılan müvafiq xidmət müqaviləsinə uyğun olaraq prodüserin (təşkilatçının) xərcləri kimi hesab ediləcəkdir. Əgər qrim və geyimlə təminat müğənninin öz üzərinə qoyulmuşdursa, belə xərcləri müğənni sahibkarlıq fəaliyyəti istiqamətində öz xərcləri kimi tanıya bilər.

Müğənnilik fəaliyyətində istifadə etmək məqsədilə geyimlərin əldə edilməsinə və qrimlənməsinə çəkilən xərclərin sənədləşdirilməsinə müğənni özü maraqlı olmalıdır. Geyim ləvazimatlarını ticarət obyektlərindən alan müğənni həmin obyektlərdən malların alışını təsdiq edən NKA çeki və ya kassa mədaxil orderi (yaxud mədaxil-qəbzi) və qaimə-faktura tələb etməlidir. Geyim əşyaları xüsusi peşəkar dərzilər və digər sənətkarlar tərəfindən hazırlandığı halda, həmin şəxslərdən mədaxil qəbzi və ya digər ciddi-hesabat blanklarının tərtib olunmasını tələb edə bilər. Müğənni geyim ləvazimatlarını kirayəyə də götürə bilər. Belə halda, o, həmin ləvazimatları kirayə formasında əldə etdiyi obyektdən NKA çeki və ya mədaxil qəbzi, həmçinin hesab-faktura tələb edə bilər. Qrim üzrə xərcləri təsdiq edən sənəd kimi qrim ustasından (qrim xidmətləri üzrə fəaliyyəti həyata keçirən şəxsdən, qrimçidən və ya qadın salonlarından) mədaxil qəbzi və ya belə xidmətlərin göstərilməsini əhatə edən xidmət müqaviləsinin bağlanması və xidmətlərin təhvil-təslim aktının imzalarla təsdiq olunmasını tələb edə bilər. Müğənni yalnız sənəd əsasında təsdiq edilmiş alışını çəkilən xərcləri kimi sübut edə bilər. Diqqət yetirilməli bir məqam vardır: müğənniyə xidmət göstərən qrimçi fiziki şəxs olduqda, həmin fiziki şəxslə mülki-hüquqi müqavilə bağlanması üçün VÖEN-in və şəxsiyyət vəsiqəsinin surətinin alınması tövsiyə olunur. VÖEN-i olan fiziki şəxslərlə müvafiq (qrim) xidmətlərin göstərilməsinə dair müqavilələrin bağlanması hüquqi baxımdan tam düzgün hesab edilir. Lakin VÖEN təqdim etməyən və ya vergi orqanlarında sahibkarlıq fəaliyyətinin göstərilməsi üçün uçota alınmayan qrimçi fiziki şəxs mülki-hüquqi müqavilə bağlamaqla müğənniyə xidmət göstərərsə, o, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs kimi məsuliyyət daşıyır və bu halda, müğənni müqavilə bağladığı (xidmətlərindən istifadə etdiyi) həmin şəxslər barədə, Vergi Məcəlləsinin 73-cü maddəsinin tələbinə uyğun olaraq, vergi orqanına məlumat verməli və belə şəxslərə ödəmələr aparması və ödəmə mənbəyində vergi tutması barədə ödəmə mənbəyindən tutulan vergi bəyannaməsi təqdim etməlidir.

**QEYD:** Yuxarıda sadalanan və ya hər hansı digər geyim və qrim xərcləri o halda vergi məqsədli xərc hesab edilə bilər ki, həmin xərclər müğənninin bilavasitə sahibkarlıq fəaliyyətinə aid olan gəlirlərinin əldə edilməsi ilə bağlı olsun.

**Davamı növbəti sayımızda**

# «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»nin tərtib edilməsi QAYDASI

Bəyannamə Vergi Məcəlləsinin 101.5-ci və 150.3-2-ci maddələrinə əsasən Azərbaycan Respublikasının ərazisində idman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxs tərəfindən tərtib və təqdim edilir.

Bəyannamə vergi orqanına hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq təqdim edilir.

**«Qeyd»** hissəsində verilmiş *«formanın tərtib edilməsi qaydalarını oxuyun» və l+, c, %, Z simvollarından istifadə etməyin, formanı böyük çap hərflər ilə qara və ya göy diyircəkli qələmlə doldurun»* **tövsiyələrinə** ciddi əməl olunmalıdır.

Bəyannamə doldurularkən qaralamalara və düzəlişlərə yol verilmir.

Vergi Məcəlləsinin 72.6.1-ci - 72.6.5-ci maddələrində göstərilən hallardan biri olduqda vergi hesabatı vergi orqanı tərəfindən qəbul edilmir.




Təqdim olunmuş bəyannamədə aparılan hesablamalardakı riyazi səhvlər vergi orqanı tərəfindən düzəldilir və kompüter proqramının düzgün hesabladığı vergi məbləğləri birbaşa baza göstəricilərinə daxil edilir.

**«Qeyd»**dən sonrakı «Bəyannamənin təqdim edildiyi vergi orqanının adı» sətrinin xanalarında böyük çap hərfləri ilə (hər xanada bir hərflə) vergi ödəyicisinin qeydiyyatda olduğu vergi orqanının adı göstərilməlidir.

**Misal:**

Bəyannamənin təqdim edildiyi vergi orqanının adı | V E R G İ L Ə R   N A Z İ R L İ Y İ   Y A N I N D A   B A K I   V E R G İ L Ə R   D E P A R T A M E N T İ

### Bölmə 2. Vergi ödəyicisi haqqında ümumi məlumat

**- 1-ci sətrin «VÖEN»** xanalarında (hər xanada bir rəqəmlə) vergi ödəyicisinin VÖEN-i yazılır;

**Misal:**

| 1 | VÖEN | 1 | 8 | 0 | 0 | 3 | 1 | 5 | 6 | 4 | 2 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

- 2-ci sətrin «Vergi ödəyicisinin tam adı» xanalarında böyük çap hərfləri ilə (hər xanada bir hərflə) vergi ödəyicisinin tam adı yazılır;

**Misal:**

| 1 | VÖEN | 1 | 8 | 0 | 0 | 3 | 1 | 5 | 6 | 4 | 2 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

- 3-cü sətrin **«Əsas fəaliyyət növünün kodu»** göstərilən yeddirəqəmli xanada (hər xanada bir rəqəmlə) vergi ödəyicisinin əsas fəaliyyət növünün statistik kodu, ondan sonra gələn fəaliyyət növünün adı göstərilən çoxsaylı xanalarda isə böyük çap hərfləri ilə (hər xanada bir hərflə) əsas fəaliyyət növünün **adı** yazılır;

**Misal:**

2 Vergi ödəyicisinin tam adı | Ə L İ Y E V   V A Q İ F   R Ə H İ M

**«Əsas fəaliyyət növünün kodu»** göstərilən yeddirəqəmli xanaların vergi ödəyicisi tərəfindən doldurulmamağı bəyannamənin vergi orqanı tərəfindən qəbul edilməməsinə əsas vermir.

**- 4-cü sətrin «Təqdim olunmuş əlavələrin sayı»** xanalarında vergi ödəyicisi tərəfindən bəyannaməyə əlavə olunan Əlavənin səhifələrin sayı yazılır (hər xanada bir rəqəmlə);

**Misal:** Vergi ödəyicisi təqdim etdiyi cari «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi bəyannaməsi»nin Əlavəsi 2 vərəqdən ibarətdir. Bu halda təqdim olunmuş vərəqlərin sayı soldan sağa aşağıdakı kimi doldurulur:

4 Təqdim olunmuş əlavələrin sayı | | | 2 | vərəq

**- 5-ci sətirdə «Bəyannamənin növü»**ndən asılı olaraq, yəni hesabat ayı üzrə tərtib edildikdə **«cari»** xanasında və ya hesabat ayı üzrə dürüstləşməyə dair hesabat tərtib edildiyi halda **«Dəqiqləşdirilmiş»** xanasında, yaxud vergi ödəyicisi ləğv olunduqda **«Ləğv olma»** xanasında **«X»** işarəsi qoyulur və **«Ləğv olma»** sözünün altındakı sətirdəki xanalarda (hər xanada bir rəqəmlə) müəssisənin ləğv olunduğu tarix göstərilməlidir:

**Misal:** Vergi ödəyicisi 2016-cı ilin yanvar ayı üçün «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni təqdim edir. Bu halda 2016-ci ilin fevral ayının 20-dən gec olmayaraq təqdim olunan bəyannamənin 5-ci, «Bəyannamənin növü» sətrindəki **«Cari»** xanasına X işarəsi qoyulur:

5 Bəyannamənin növü (müvafiq xanadan birində X göstərin) | x | Cari
Hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq təqdim edilir

Vergi ödəyicisi ləğv olunduqda isə **«Ləğv olma»** xanasında **«X»** işarəsi yazılır və **«Ləğv olma»** sözünün altındakı sətirdə olan xanalarda (hər xanada bir rəqəmlə) vergi ödəyicisinin ləğv olunduğu tarix göstərilir.

**Misal:** Qanuna müvafiq qaydada müəssisə 23 mart 2016-ci il tarixə ləğv olunmuşdur. Bu halda müəssisənin ləğv olunması barədə son bəyannamənin 5-ci sətrinin **«Ləğv olma»** xanaları soldan sağa doğru ilk iki xanada **«gün»**, sonrakı iki xanada **«ay»**, sonuncu dörd xanada isə lil» aşağıdakı kimi yazılmalıdır:

5 Bəyannamənin növü (müvafiq xanadan birində X göstərin) | x | Lağv olma | 2 3 | 0 3 | 2 0 1 6
gün ay il

- 6-cı sətirdə «Vergi dövrü», **C** işarəsindən sonrakı altırəqəmli xanalarda bəyannamənin hansı hesabat ayına aid olmasından asılı olaraq (hər xanada bir rəqəmlə) müvafiq ay və il yazılır.

**Misal:** Əgər bəyannamə 2016-cı ilin yanvar ayı üzrə tərtib edilirsə, bu halda soldan sağa doğru ilk iki xanada ay, sonuncu dörd xanada isə il aşağıdakı qaydada yazılır:

| 6 | Vergi dövrü | C | 0 | 1 | 2 | 0 | 1 | 6 |
|---|---|---|---|---|---|---|---|---|

### Bölmə 3. Verginin hesablanması

- Bəyannamənin 2-ci bölməsinin **1620** sətrində hesabat dövrü ərzində fiziki şəxslər tərəfindən əldə edilmiş ümumi gəlirin məbləği və müvafiq olaraq ümumi verginin məbləği qeyd olunur.

**Misal:** Vergi ödəyicisində hesabat ayı ərzində həyata keçirilən idman mərc oyunları nəticəsində **42500,00** manat mükafat vermiş və buna müvafiq olaraq uduş əldə edən şəxsdən ödəmə mənbəyində **4250,00** manat gəlir vergisi tutumuşdur. Bu halda müvafiq xanalar aşağıdakı kimi doldurulur:

| Sətrin kodu | Göstəricilər | | Uduşların ümumi məbləği, manatla | | verginin məbləği, manatla |
|---|---|---|---|---|---|
| 1620 | İdman mərc oyunlarından əldə edilmiş uduşlar | C1 | 4 2 5 0 0 \| 0 0 | C2 | 4 2 5 0 \| 0 0 |

- Bəyannamənin «Vergi ödəyicilərinin məsuliyyəti» hissəsində - zolağın aşağısında sol tərəfdə yuxarıdan aşağı göstərilmiş birinci **«fərdi sahibkarın və ya hüquqi şəxsin rəhbərinin»**, ikinci **«baş mühasibin»**, üçüncü **«bəyannaməni tərtib edən məsul şəxsin»** çərçivələrində vergi ödəyicisinin rəhbərinin, baş mühasibinin və bəyannaməni tərtib edən məsul şəxsin soyadı, adı və atasının adı (çərçivələrdən kənara çıxmadan) yazılır onlar tərəfindən imza qoyulur. Bəyannamə rəhbər şəxs tərəfindən imzalandıqdan və möhürlə təsdiqləndikdən sonra möhürün aşağı hissəsindəki **«bəyannamənin tərtib edilmə tarixi»**nə dair xanalar doldurulmalıdır.

- Bəyannamə auditor (agent) tərəfindən tərtib edildikdə sağ tərəfdə aşağı küncdə yuxarıdan dördüncü çərçivədə - «Bəyannaməni auditor (agent) tərtib etdiyi halda onun S.A.A» - auditorun (agentin) soyadı, adı və atasının adı (çərçivələrdən kənara çıxmadan) yazılmaqla imzalanır, «auditorun (agentin) VÖEN» xanalarında VÖEN göstərilir və dairənin üzərində auditorun möhürü ilə təsdiqlənir.

- **«Bəyannamənin qəbul №-si və tarixi»** çərçivəsi vergi orqanı tərəfindən doldurulur.

- **«Bəyannamənin qəbul №-si və tarixi»** çərçivəsinin altında bəyannaməni qəbul edən şəxs soyadını, adını və atasının adını (çərçivədən kənara çıxmadan) yazmaqla imza qoyur.

- Bəyannamə poçt vasitəsilə göndərildikdə bəyannamənin sağ küncündə göstərilmiş «Poçt ştempelinin vurulma tarixi» xanalarında zərfin üzərinə vurulmuş poçt ştempelinin tarixi yazılır.

- **«Poçt ştempelinin vurulma tarixi»** çərçivəsindən aşağı sağ küncündəki «Xüsusi otağın ştampı» çərçivəsinə ştamp vurulur.

Bəyannamə vergi ödəyicisi tərəfindən birbaşa təqdim edildikdə poçt ştempelinin vurulma tarixi üzrə xanalar doldurulmur. Bəyannamə internet vasitəsi ilə təqdim edildikdə vergi orqanlarına aid xanalar doldurulmur.

# “Ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında” məlumat forması təsdiq edilib

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanunu ilə Vergi Məcəlləsinin 218-ci maddəsinə dəyişikliklər edilmişdir. Bu dəyişikliklərə əsasən, 1 yanvar 2016-cı il tarixdən etibarən vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Vergi Məcəlləsinin 218.1.2-ci maddəsinə edilmiş dəyişikliklərdə isə göstərilir ki, ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan və hal-hazırda ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan vergi ödəyicilərinin vergi mükəlləfiyyətlərini dəqiqləşdirmək hüququ yaranır.



Ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında
MƏLUMAT FORMASI

1. Məlumatın verilməsini şərtləndirən hal

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinin 218.1.2-ci maddəsinə əsasən vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin bu fəaliyyət üzrə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə:

1.1 Edirəm ☐ 1.2 Etmirəm ☐

Qeyd: Hüquqdan istifadə edildiyi halda, sadələşdirilmiş vergi dərəcəsinin ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz olduğundan və təqvim ilinin sonunadək seçdiyim metodu dəyişdirmək hüququmun olmadığından xəbərdaram.

2. Məlumatın təqdim edildiyi vergi orqanı

2.1 vergi orqanının adı

3. Vergi ödəyicisi haqqında məlumat

3.1 vergi ödəyicisinin adı

3.2 vergi ödəyicisinin VÖEN-i

4. Əlavə məlumatlar (bu hissə yalnız, yeganə fəaliyyəti ticarət və ictimai iaşə olan vergi ödəyicisi tərəfindən doldurulur)

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxs kimi bu fəaliyyət üzrə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə edərək aşağıdakıları bildirirəm

4.1 Vergi Məcəlləsinin 158.1-ci maddəsinə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair ərizə verməyi öhdəmə götürürəm

4.2 ƏDV-nin yekun bəyannaməsi növbəti ayın 20-dək təqdim ediləcəkdir

5. Məlumatı təqdim edənin:

5.1 soyadı

5.2 adı

5.3 atasının adı

5.4 məlumatın təqdim edilmə tarixi | 2 0

M.Y.

5.5 vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin imzası

Qanunvericilikdə edilmiş bu dəyişikliklərlə əlaqədar olaraq, vergilər nazirinin əmri ilə «Ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında» məlumat forması təsdiq edilmişdir.

beynəlxalq panoram

# Latviya vergi potensialını gerçəkləşdirə bilmir



Maliyyə İntizamı Şurasının hesabatında ölkənin rastlaşdığı əsas problemlər əks olunub. Hesabatda göstərilir ki, ƏDV yığımları, daşınmaz əmlak və ətraf mühitin qorunması ilə bağlı vergilərin toplanması zamanı mövcud potensialdan kifayət qədər düzgün istifadə edilmir.

Şurada ƏDV gəlirlərinin natamam istifadəsinə nümunə kimi Baltikyanı ölkələrdə ƏDV-nin effektiv dərəcələri müqayisə olunub. 2014-cü ildə Estoniyada ƏDV-nin effektiv dərəcəsi 15,05% təşkil etdiyi halda, Latviyada bu göstərici 11,58% olub. Hesabatda deyilir ki, Avropa Komissiyası Latviyada nominal və effektiv ƏDV dərəcələri arasındakı kəskin fərqi bu verginin ödənilməsinə verilmiş güzəştlərlə, habelə vergidən yayınma halları ilə izah edib. Avropa Komissiyasının qiymətləndirmələrinə görə, 2012-ci ildə əmlak vergisi üzrə büdcə gəlirləri ÜDM-in 0,9%-ni təşkil edib ki, bu da Avropa üzrə orta göstəricidən (2,3%) xeyli aşağıdır. Qanunvericiliyə edilmiş son dəyişikliklər daşınmaz əmlak vergisindən daxilolmaların artırılması məqsədi daşısa da, bu vergi üzrə güzəştlərin sayının çox olması səbəbindən gəlirlər yenə də aşağıdır.

Analoji vəziyyət ətraf mühitin qorunması ilə bağlı vergilərdə də müşahidə olunur. Onlardan bəzilərinin dərəcələrini artırmaq mümkündür, çünki AB-nin digər ölkələri ilə müqayisədə bu vergilərin səviyyəsi xeyli aşağıdır.

Hesabata görə, şura hökumətin 2016-cı ildə büdcə gəlirlərinin artımına yönəldilmiş tədbirləri dəstəkləyir, lakin həmin tədbirlər vergi daxilolmalarının həcmini ÜDM-in 28%-nə qədər artırmağa imkan verəcəkdir ki, bu da yaxşı göstərici sayıla bilməz.

Maliyyə İntizamı Şurası əvvəllər də hökumətin vergi yükünü gəlirlərdən istehlaka və kapital artımına keçirə bilmədiyini qeyd etmişdi. Hesabatda bildirilir ki, dividendlərdən və kapitaldan gəlirlərə vergilərin dərəcəsi, əvvəlki kimi, əməkhaqqına tətbiq olunan vergi dərəcələrindən aşağıdır.

Şura gəlirlərdə bərabərsizliyin azalmasına yönəldilən dəyişiklikləri, o cümlədən vergidən azad minimumun artırılmasını, həmrəylik vergisinin və diferensiallaşdırılmış vergi tutulmayan minimumun tətbiqini təqdir edib. Şuranın hazırladığı tövsiyələrdə göstərilir ki, toplanan vergilərin həcmi ÜDM-in 1/3-ni təşkil etməlidir. Bu məqsədə çatmaq üçün vergi siyasəti və vergi inzibatçılığının strategiyası üzərində işləmək lazımdır. Xüsusi diqqət kölgə iqtisadiyyatının payının azalmasına, vergi yığımının səmərəliliyinin artırılmasına, eləcə də vergi dərəcələrinə yenidən baxılmasına və vergi güzəştlərinin ləğvinə yönəldilməlidir.

Xatırladaq ki, hazırda Latviyada «kölgə iqtisadiyyatı»nın xüsusi çəkisi təxminən 23,6% təşkil edir. Ekspertlərin fikrincə, bu il vergi daxilolmaları üzrə proqnozlar planının icrası sual altındadır, çünki bu sahədə azalma artıq 47 milyon avronu keçir. Azalmanın böyük bir hissəsi isə ƏDV-nin payına düşür (42 milyon avro).

## Xəbər lenti

**Rusiya** Dövlət Dumasında müzakirə olunmuş yeni qanun layihəsinə əsasən, intizamsız borclular, eləcə də vergi borclarını vaxtında ödəməyənlər nəqliyyat vasitələrini idarə etmək hüququndan müvəqqəti məhrum olunacaqlar.

**«Koka-Kola»** şirkəti vergilərin ödənilməməsi ilə bağlı iddia ilə əlaqədar ABŞ vergi məhkəməsinə etiraz ərizəsi ilə müraciət etmişdir. Transfert qiymətləndirmə sistemi sayəsində «Koka-Kola» 2007-ci ildən 2009-cu ilədək 9,4 mlrd. dollar gəlir götürmüşdür. Bu gəlirə görə şirkət faizləri nəzərə alınmadan 3,3 mlrd. dollar vergi ödəməlidir.

**Belarusda** gələn il aprelin 1-dən ölkə vətəndaşlarının bank əmanətlərinə hesablanan faizlərdən vergi tutulacaq.

**Argentina** hökuməti kənd təsərrüfatı məhsullarının ixracı üçün vergi güzəşti tətbiq olunmasını planlaşdırır. Hazırda ölkədən ixrac edilən buğda və qarğıdalı üçün tətbiq olunan vergi dərəcəsi 23 faizdən yüksəkdir.

**Cənubi Koreyanın** Strategiya və Maliyyə Nazirliyinin təklif etdiyi yeniliyə əsasən, 2016-cı il yanvarın 1-dən əcnəbi turistlər ƏDV və fərdi istehlak vergisi kimi ödədikləri məbləğləri ölkə ərazisində rüsumsuz mallar satan yerli mağazalarda geri ala biləcəklər. Hazırda ölkənin qonaqları rüsumsuz mağazalarda aldıqları malları və müvafiq qəbzi ölkədən çıxarkən gömrük orqanına təqdim etməlidirlər ki, bu da kassaların qarşısında böyük növbələr, izafi vaxt itkisi yaradır.

**Özbəkistan** Dövlət Vergi Komitəsinin rəhbərliyi ilə Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətinin görüşü zamanı sahibkarlıq subyektləri üçün vergi yükünün azaldılması, bürokratik əngəllərin aradan qaldırılması, lisenziya və icazə prosedurlarının azaldılaraq sadələşdirilməsi, hesabatlılıq sistemində bazar iqtisadiyyatının, beynəlxalq norma və standartların tələblərinə uyğun əsaslı islahatlar aparılması, eləcə də biznesə müdaxilənin qarşısının alınması və vergi qanunvericiliyinin pozulması ilə bağlı məsuliyyətin liberallaşdırılması kimi məsələlər müzakirə olunub.

Xarici ölkələrin təcrübəsi

# Yaponiyanın vergi sistemi: fiziki şəxslərin gəlir vergisi



*Daimi və qeyri-daimi rezident fiziki şəxslər və qeyri-rezident fiziki şəxslər bu verginin ödəyiciləri hesab olunur. Ər və arvadlar ayrıca vergi ödəyiciləridir və onlara birgə vergitutma tətbiq edilmir.*




***Rezidentlik***

Yaponiyada daimi yaşayış yeri olan və ya ən azı bir il bu ölkədə yaşamış fiziki şəxslər rezident hesab edilir. Əgər rezident fiziki şəxsin Yaponiya vətəndaşlığı yoxdursa və bu ölkədə son on il ərzində 5 il və ya daha az müddət yaşamışdırsa, həmin fiziki şəxs qeyri-daimi rezident hesab olunur. Qeyri-daimi rezident olmayan rezidentlər daimi rezident hesab edilirlər.

***Vergiyə cəlb olunan gəlir***

Daimi rezident bütün gəlirləri üzrə vergi öhdəliyi daşıdığı halda, qeyri-daimi rezident yalnız Yaponiya mənbəyindən gəlirləri və bu ölkədə ödənilən və ya Yaponiyaya köçürülən gəlirləri üzrə vergi öhdəliyi daşıyırlar. Qeyri-rezidentlər yalnız Yaponiya mənbəyindən gəlirlərindən vergi öhdəliyi daşıyırlar.

Proqressiv vergi dərəcələri tətbiq edilən adi gəlirə faiz, dividend, daşınmaz əmlakdan gəlir, sahibkarlıq fəaliyyətindən gəlir, muzdlu işdən gəlir, vaxtaşırı gəlir, daşınmaz əmlak və qiymətli kağızların satışı istisna olunmaqla kapital artımından gəlir aid edilir. Daşınmaz əmlak və qiymətli kağızların satışından kapital artımı ayrıca xüsusi dərəcələrlə vergiyə cəlb edilir.

***Vergidən azad olunan gəlir***

Bura aşağıdakılar aid edilir:

- Vəfat etmiş şəxsin ailəsinə verilən, onun xidmətlərinə əsaslanan pensiya;
- Mebel, ev əşyaları və paltar kimi gündəlik həyatda zəruri olan aktivlərin satışından kapital artımı;
- Bədbəxt hadisə sığortası şəhadətnaməsinə əsasən, dəymiş əqli və ya fiziki xəsarətə görə sığorta tələbi üzrə ödənişlər;
- Fiziki şəxsin 2014-2023-cü illər ərzində bir ildə kotirovka edilmiş səhmlərə 1,2 milyon yenədək (10.324 manat), 20 yaşdan aşağı fiziki şəxslər üçün 0,8 mln. yenədək (6882 manat) sərmayə edə bildiyi və onları maksimum 5 il müddətə saxlaya bildiyi fərdi yığım hesablarında saxlanılan kotirovka edilmiş səhmlərdən əldə edilən dividend və kapital artımından gəlir.

***Dərəcələr***

Fond birjasında siyahıya alınmış səhmlərdən dividend gəlirlərini adi gəlirdən ayrı bəyan edən vergi ödəyicilərinin bu cür dividend gəlirləri 20% dərəcə ilə vergiyə cəlb olunur (15% milli gəlir vergisi və 5% sakin vergisi). Daşınmaz əmlakın satışından kapital artımına vergi dərəcəsi əmlaka sahiblik müddətindən asılıdır. Satış ilinin 1 yanvar tarixinə vergi ödəyicisinin 5 ildən artıq sahib olduğu əmlaka verginin dərəcəsi 20% (15% milli gəlir vergisi, 5% sakin vergisi) təşkil edəcəkdir. Əgər vergi ödəyicisi yaşadığı əmlaka 10 ildən artıq sahib olmuşdursa, kapital artımının ilk 60 milyon yen (516 min 202 manat) hissəsinə görə verginin dərəcəsi 14%-dək (10% milli gəlir vergisi, 4% sakin vergisi) azaldılır.

Sahibolma dövrü 5 ildən az olarsa, verginin dərəcəsi 39% (30% milli gəlir vergisi, 9% sakin vergisi) təşkil edəcəkdir. Səhmlərin satışından kapital artımı 20% (15% milli gəlir vergisi, 5% sakin vergisi) dərəcə ilə vergiyə cəlb olunur.

***Ödəmə mənbəyində vergilər***

Yaponiyada rezidentlərə ödənilən əməkhaqqı ödəmə mənbəyində vergiyə cəlb edilir. Vergi əməkhaqqının verildiyi müddətdən (məsələn, aylıq və ya gündəlik) və himayədə olanlarla bağlı ərizənin təqdim edilib-edilməməsindən asılı olaraq tutulur. İşəgötürən vergini əməkhaqqı ödənildiyi zaman tutur və növbəti ayın 10-cu gününədək müvafiq vergi idarəsinə keçirir. Yaponiyada rezident fiziki şəxslərə ödənilən dividendlər ödəmə mənbəyində 20% (yalnız milli gəlir vergisi) dərəcə ilə vergiyə cəlb olunur.

Rezident fiziki şəxslərə bank depozitləri və dövlət istiqrazları üzrə ödənilən faizlər ödəmə mənbəyində 20% (15% milli gəlir vergisi, 5% sakin vergisi) dərəcə ilə yekun vergiyə cəlb olunur. Yaponiyada fiziki şəxslərə ödənilən royaltilərin hər bir ödəniş üzrə ilk 1 milyon yen hissəsi 10%, qalan hissəsi isə 20% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

Bəyannamə təqdim edilən zaman ödəmə mənbəyində tutulan vergi yekun vergi öhdəliyinin hesablanmasında tam həcmdə çıxılır.

***Vergi bəyannamələri***

Yaponiyada özünüqiymətləndirmə sistemi mövcuddur. Vergi bəyannamələri ağ və mavi olmaqla iki kateqoriyaya bölünür. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan və mühasibat hesabatlarını saxlayan fiziki şəxslər müvafiq vergi orqanının təsdiqi ilə mavi bəyannamə təqdim edir. Mavi bəyannamə təqdim edən fiziki şəxslərə işçilərə ödənilən əməkhaqqının çıxılması, zərərin növbəti dövrlərə keçirilməsi və digər xüsusi çıxılmalar kimi üstün vergi ölçüləri təqdim olunur. Fiziki şəxs təqvim ili üçün gəlir vergisi bəyannaməsini növbəti ilin 16 fevral tarixindən 15 mart tarixinədək müvafiq vergi orqanına təqdim etməlidir. Vergi bəyannaməsinin nüsxəsi sakin vergisi ilə məşğul olan yerli hakimiyyət orqanına göndərilir. Bəyannamənin təqdimolunma müddəti uzadıla bilməz. Xüsusi rekonstruksiya gəlir vergisinin bəyannaməsi yekun gəlir vergisinin bəyannaməsi ilə birlikdə təqdim edilməlidir. Muzdlu işdən illik gəliri 20 milyon yen (172.067 manat) və ya daha az olan fiziki şəxslər müəyyən şərtlərlə vergi bəyannaməsi təqdim etmək məcburiyyətində deyil. Bununla belə, həmin vergi ödəyicisinin bədbəxt hadisədən zərər, tibbi xərclər və ianələr kimi çıxılma tələbi olarsa, vergi bəyannaməsi təqdim edilməlidir.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:** 1.Masallı rayonunda kənd; 2.Ət məhsulu; 3.Qabonda şəhər; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Saçı formaya salmaq üçün dişli alət; 6.Bozalaq cinsinə aid bitki növü; 9.Ölkəmizdə futbola nəzarət edən rəsmi qurum; 13.Kimyəvi element. Rəngsiz qaz; 15.Dövlətin və ya dövlət daxilində muxtar ərazinin inzibatı mərkəzi olan şəhər. Həmçinin salat adı. «Olivye» adı ilə də tanınır; 16.Gerçək görüntünün rəqəmli surətini yaratmaq üçün ofis texnikası; 17.Az miqdarda məişət çirkab sularını təmizləmək üçün qurğu; 18.Afrikanın şimalında yerləşən və Böyük səhra adlandırılan ərazi; 20.Azərbaycan Premyer Liqasında mübarizə aparan futbol klubu; 21.«Görüş» bədii filmində (1955) baş qəhrəman - Lala obrazını canlandıran Özbəkistan aktrisasının adı.

**Soldan sağa:** 1.Azərbaycanda qadınlardan ibarət voleybol klubu; 5.Azərbaycan nağıllarının personajlarından biri, yarıheyvan, yarıinsan səciyyələr daşıyan nəhəng əfsanəvi varlıq; 7.Nigeriya kino sənayesinin mərkəzi; 8.Respublikamızda çay. Bədii ədəbiyyatda daha çox ayrılığın rəmzi kimi xatırlanır; 10.Türkiyədə şəhər; 11.Qədim yunan filosofu və riyaziyyatçısı, dini-fəlsəfi məktəbin banisi; 12.Həftənin günü; 14.Avtomobil markası; 19.Yapon mənşəli əyləncə anlayışıdır. Fonoqram əsasında qeyri-peşəkar mahnı ifa etməsinə verilən ad; 21.Hindistanda şəhər; 22.Rusiyada çay; 23.Teatr termini. Buffonada tərzində qısa fars tamaşaları; 24.Tailandda ada; 25.Qvatemalada departament və şəhər.



*Lala və Kamil. «Görüş» bədii filmindən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ananda; 2.Nitinol; 3.Kaqoy; 4.İrakli; 5.Plaun; 6.Şaolin; 9.İvye; 13.Nalu; 15.Ondatra; 16.Ahşeri; 17.Aypara; 18.Krater; 20.Milan; 21.Qunpo. **Coldan cağa:** 1.Anneksiya; 5.Piş; 7.Avtoqraf; 8.Şamo; 10.Dunay; 11.Ləvəngi; 12.Şlanq; 14.Neron; 19.Himalay; 21.Qədir (Rüstəmov); 22.Esla; 23.Maqnetit; 24.İon (dənizi); 25.Apatozavr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

idman

# Mariya Durunda yenə də birincidir

Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə 22-ci Azərbaycan birinciliyi və bölgələrarası kubok yarışları başa çatıb. 160 gimnastın iştirak etdiyi turnirın sonuncu günü peşəkar gimnastların çıxışı ilə yadda qalıb. Böyüklər arasında milli komandanın yeni qrup fəndləri ilə nümunəvi proqram çıxışı nümayiş etdirilib. Sonra yarışın iştirakçıları mükafatlandırılıb.

Azərbaycan yığmasının lider atleti, birinci Avropa Oyunlarının gümüş, 2015-ci il Avropa çempionatının bürünc medalçısı, Rio-de-Janeyroda keçiriləcək Olimpiya Oyunlarının lisenziya sahibi Marina Durunda bədii gimnastika üzrə 22-ci Azərbaycan birinciliyinin qalibi olub. İkinci yeri 2014-ci il Avropa çempionatının ikiqat mükafatçısı Jalə Piriyeva, üçüncü yeri isə Renata Ələkbərova tutub. 2015-ci ilin son idman tədbiri maraqlı konsert proqramı ilə başa çatıb.





Azərbaycan qrossmeysteri Rauf Məmmədov blits üzrə Avropa çempionu olub. Dekabrın 18-də Minskdə başlayan blits üzrə Avropa çempionatında 600-dən artıq iştirakçı birincilik uğrunda mübarizə aparıb. 22 mümkün xaldan 18 xal toplayan azərbaycanlı şahmatçı Rauf Məmmədov Avropa çempionu tituluna layiq görülüb. İkinci və üçüncü yerləri rusiyalı şahmatçılar Boris Savçenko və Aleksandr Ryazantsev tutublar.

Tanınmış portuqaliyalı mütəxəssis Joze Mourinyu «Çelsi»nin baş məşqçisi vəzifəsindən kənarlaşdırılıb. Bu, onun komandaya çempionluq qazandırmasından yeddi ay sonra baş verib. J.Maurinyunun yerinə namizədlər Qus Hiddink, Xosep Qvardyola, Brendan Rocers və Xuande Ramosdur. Qeyd edək ki, bu mövsüm xeyli aşağı səviyyədə çıxış edən «Çelsi» hazırda İngiltərə çempionatının autsayderləri sırasındadır.



# Boks üzrə ənənəvi beynəlxalq turnirin qalibləri müəyyənləşib

Azərbaycan boks məktəbinin banisi, Əməkdar idman ustası, SSRİ-nin Əməkdar məşqçisi Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənc idmançıların beynəlxalq turnirinə yekun vurulub. Azərbaycan Boks Mərkəzində təşkil olunan yarışın sonuncu günündə keçirilən final qarşılaşmalarında dörd boksçumuz qalib adı uğrunda mübarizə aparıb. 60 kiloqram çəki dərəcəsində yarışan Sərxan Əliyev qazaxıstanlı rəqibi Nurbol Sultanbayı məğlub edərək turnirin qalibi olub. Pərviz Quliyev (69 kq) özbəkistanlı Uluqbek Sobirova uduzaraq gümüş medal ilə kifayətlənib. Digər boksçumuz Rasim Çobanlı (75 kq) da final görüşünü qələbə ilə başa vurub. O, Türkmənistan idmançısı Nuryağdı Nuryağdıyevi məğlub edib. Elbrus Əkbərov (81 kq) qazaxıstanlı Bekzat Nurdövlətova uduzaraq turniri ikinci pillədə başa vurub.

Digər final görüşlərinin nəticələrinə əsasən, fəxri kürsünün ən yüksək pilləsinə Otabek Xolmatov (46-49 kq, Özbəkistan), Aydos Arapov (52 kq, Qazaxıstan), Al Muhammed Mahmud (56 kq, Qazaxıstan), Ray Seytcanov (64 kq, Qazaxıstan), Şohruz Rəkimov (91 kq, Özbəkistan) və Giorgi Zurabiani (91 kq-dan yuxarı, Gürcüstan) qalxıblar.

Beynəlxalq turnirin yekunlarına əsasən, komanda hesabında Qazaxıstan millisi birinci olub. Özbəkistan yığması ikinci, Azərbaycan boksçuları isə üçüncü nəticə göstəriblər.



mozaika

## Duzlu suyun şəfası

araşdırma

Açıq sınıqlara tibbi yardım göstərilməsi və infeksiyaların profilaktikası prosesində bir çox elmi nailiyyətlər əldə olunsa da, standart praktika dəyişməyib - əməliyyatdan əvvəl yara sabunlu su ilə təmizlənir.

Kanadanın MakMaster Universitetinin alimlərinin başçılıq etdiyi beynəlxalq tədqiqatçılar qrupu açıq yaraların duzlu su ilə yuyulmasının zəruriliyini aşkara çıxarıb. Mohit Bhandarinin başçılıq etdiyi qrup açıq əl və ayaq sınıqları olan 2400 adamı müayinə edib. Onların yaraları həm sabunlu su, həm də duzlu məhlulla yuyulub, suyun təzyiqi isə müxtəlif səviyyədə olub. Tədqiqatçılar müəyyən ediblər ki, çox aşağı təzyiqli su açıq sınıqları yumaq üçün məqbul və ucuz alternativdir. Sabundan istifadə olunan qrupda təkrar əməliyyatların sayı daha çox olub.

M.Bhandari deyib: «Sümük sınıqları olan ciddi yaralardan çirki və qalıqları təmizləmək üçün hansı üsulun daha yaxşı olması barədə çox mübahisələr olub. Təcrübə göstərir ki, yaranın sabunlu su ilə təmizlənməsi adi su ilə yuyulmasından heç də səmərəli deyil». Eksperimentin həmmüəllifi Edvard Harvey əlavə edib: «Bu məlumatlar bütün dünyada, xüsusən, belə halların daha çox müşahidə edildiyi inkişaf etməkdə olan ölkələrdə açıq sınıqları olan pasiyentlərin müalicəsi üçün böyük əhəmiyyət kəsb edir. Biz yaranı təmizləmək üçün vaxtımızın çoxunu sabun və sudan istifadəyə sərf edirdik, amma daha bunu etmirik».

Tədqiqat zamanı Birləşmiş Ştatların 41 regionundan, Kanada, Avstraliya, Norveç və Hindistandan xəstələr üzərində müşahidə aparılıb. Onların çoxu 40 yaşdan yuxarı kişilər olub.

Tədqiqatçılar əlavə ediblər ki, onların nəticələri yol-nəqliyyat hadisələrinin tez-tez baş verməsi səbəbindən açıq sınıqların payının yüksək olduğu aşağı və orta gəlirli ölkələr üçün xüsusilə aktualdır.

## Qış gəldi...

tabiat



Dekabrın 22-si Bakı vaxtilə saat 08:48-də qış fəsli başlayır. Həmin gün Yer Qış Günəş duruşu nöqtəsindən keçir. Bundan sonra Yerin şimal yarımkürəsində şimal hissəyə xarakterik olan qış fəsli başlayır.

Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasından bildiriblər ki, Yer Qış Günəş duruşundan keçdikdən bir neçə gün sonra gün uzanacaq, gecə qısalacaq. Qış Günəş duruşunun xarakterik xüsusiyyəti ondan ibarətdir ki, həmin gün ən qısa gündüz, ən uzun gecə olur.

cəmiyyət

## Aclıqdan xilas üçün ümid yeri



Geni dəyişdirilmiş bitkilərdən istifadə məsələsi müasir dünya elminin və ictimai-siyasi fikrinin aktual mövzularındandır. Britaniya alimləri tezböyüyən və xüsusi qulluq tələb etməyən GMO-çəltiyi (GMO geni modifikasiya olunmuş orqanizmdir) uzunmüddətli perspektivdə aclıqdan xilas olmaq üçün bəşəriyyətin yeganə ümidi adlandırıblar.

Çəltiyin geni dəyişdirilmiş növü «C4 Rice Project» layihəsi çərçivəsində yetişdirilir. Bu layihə Bill və Melinda Qeytslərin dəstəyi ilə 2008-ci ildə start götürüb. Tədqiqatlarda səkkiz ölkədən 12 elmi müəssisə iştirak edir.

Çəltik - tipinə görə fotosintezin C3 sinfinə aiddir və yetərincə şıltaq kənd təsərrüfatı bitkisi sayılır. Alimlərin məqsədi onun sinfini C4-ə dəyişdirməkdir. Bu, həmin dənli bitkinin məhsuldarlığını 50 faiz artırmağa, onu xüsusi qulluq tələb etməyən daha tezböyüyən bitkiyə çevirməyə imkan verir.

Alimlər ilk iki fazanın gedişatında C4 sinfinin fotosintezinə cavabdeh olan bitkilərin biokimyəvi və morfoloji komponentlərini uğurla indentidikasiya ediblər. Tədqiqatın üçüncü mərhələsi geni modifikasiya olunmuş çəltiyin tənzimləyici mexanizmlərinin tədqiq edilməsindən ibarətdir.

Tədqiqatçıların fikrincə, bir çox bitkilərin C3 sinfi fotosintezindən C4 sinfinə keçidi təkamül amili ilə bağlıdır və bu səbəbdən, həll etdikləri məsələ göründüyü qədər çətin deyil. Tədqiqatın rəhbərlərindən biri, professor Ceyn Lanqdeyl deyib: «Yer kürəsində əhalinin artım sürətini və urbanizasiyanın miqyasını nəzərə alsaq, yaxın 35 ildə insanlara özlərini dolandırmaq üçün iki dəfə çox düyü lazımdır. Ümidvaram ki, biz bu məsələni vaxtında həll edəcəyik».

## Səyyar ev

maraqlı



Salyan sakini Elçin Əzizovun düzəltdiyi daşınan evi avtomobilə qoşub istənilən yerə aparmaq mümkündür. Bu evdə bütün lazımi şərait var - divan, kreslo, masa və mətbəx. Orta təhsilli Elçin deyir ki, onu bu addımı atmağa sövq edən əkin sahəsində işləyərkən istirahət etməsi üçün sığınacağa yaranan ehtiyac olub.

Elçin 45 gün ərzində ərsəyə gətirdiyi səyyar evin layihəsini internetdən əldə edib. Bunun düzəldilməsində istifadə olunan detallar isə «QAZel» və «Qaz-31» markalı avtomobillərə məxsusdur. Daşınan evin ümumi sahəsi 10 kvadratmetr, çəkisi 1 ton 600 kiloqramdır. Onun əsas hissəsini yataq otağı tutur ki, burada televizor və kompüter üçün xüsusi masalar da quraşdırılıb. Otaqların işıqlandırılmasında həm 220, həm də 12 voltluq enerji mənbəyindən istifadə olunur.

Daşındığı yerdə ətraf mühitin çirkləndirilməməsi məqsədilə səyyar evin alt hissəsinə çirkab suların toplanması üçün xüsusi çən də yerləşdirilib.

ELAN



**«Vergilər» qəzetinə 2016-cı il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **28 manat 60 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

**VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581**
**VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22**

**Müdriklər deyib ki...**



***«Özünü ağıllı hesab edirsənsə, düzgün müraciət etməyi, diqqətlə dinləməyi, sakit cavab verməyi və az danışmağı öyrənməlisən».***

***Lev Tolstoy (1828-1910)***